**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ZEMFİRA ƏLİ QIZI HACIYEVA**

# QARABAĞ VƏ İRƏVAN XANLIQLARININ TARİXŞÜNASLIĞI

**İxtisas 5503.02 – «Vətən tarixi»**

Tarix üzrə elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

# A V T O R E F E R A T I

BAKI – 2013

*Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın yeni tarixi" şöbəsində yerinə yetirilmişdir.*

**Elmi məsləhətçi:**
tarıx üzrə elmlər doktoru, professor **T.T.Mustafazadə**

**Rəsmi opponentlər:**
tarıx üzrə elmlər doktoru, professor **K.K.Şükürov**
tarıx üzrə elmlər doktoru **Z.A.Bayramov**
tarıx üzrə elmlər doktoru, professor **A. B.Baxşəliyev**

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan tarixi" kafedrası

Müdafiə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru dərəcələrini almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının «__» «___________» 2013-cü il tarixli iclasında, saat «___» da keçiriləcəkdir.

**Ünvan:** AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti, 31.

Dissertasiya ilə AMEA Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat «___» ___________ 2013-cü ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi
tarix üzrə fəlsəfə doktoru **C.Ə.Bəhramov**

# I. DISSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. SSRİ-nin süqutu və Şimali Azərbaycanda milli dövlətçiliyin yenidən bərpası, milli tarix elminin inkişafı üçün geniş imkanlar yaratdı. Azərbaycanın siyasi, sosial-iqtisadi və mədəniyyət tarixinə dair problemlərin, o cümlədən tarixşünaslıq məsələlərinin tədqiqi həm elmi, həm də siyasi əhəmiyyət kəsb edərək xalqımız üçün ideoloji müharibədə həyati zərurətə çevrildi. Sovet imperiyasının süqutu ərəfəsində Ermənistanın Azərbaycan xalqına qarşı əsassız ərazi iddiaları geniş miqyaslı müharibəyə çevrildi və Azərbaycan Respublikası ərazisinin 20%-nin işğalı ilə nəticələndi. Azərbaycan xalqına qarşı etnik təmizləmə, deportasiya və soyqırım cinayətləri ilə müşayət olunan bu işğala haqq qazandırmaq üçün təcavüzkar Ermənistan dövləti Cənubi Qafqaz və xüsusilə də Şimali Azərbaycan tarixini saxtalaşdırmaq xəttini daha da genişləndirdi. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycan Respublikasının siyasi rəhbərliyinə qayıdaraq milli dövlətçiliyi xilas etməsi, həm elmi, həm də ideoloji sahədə təşəbbüsün ələ alınması ilə nəticələndi. Azərbaycan Respublikası Prezidentinin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiya haqqında" (1997,18 dekabr) və "Azərbaycanlıların soyqırımı haqqında" (1998, 26 mart) fərmanları Azərbaycan xalqına qarşı törədilən cinayətlərin tədqiqi üçün zəmin yaratdı. Heydər Əliyev 1997-ci il yanvarın 31-də AMEA-nın alimləri ilə görüşü zamanı Azərbaycan tarixinin bütün dövrlərinin, ilk növbədə XIX-XX əsrlər tarixinin yenidən tədqiqinin xalqımıza qarşı davam edən hərbi və ideoloji təcavüzün qarşısını almaq üçün nə qədər vacib olduğunu ön plana çəkdi.[1] Ümumi Azərbaycan tarixi ilə eyni zamanda, onun hər bir tarixi-coğrafi bölgəsinin, o cümlədən Qarabağ və İrəvan tarixinin kompleks şəkildə öyrənilməsi zərurəti də qeyd edilmişdir.

Azərbaycan tarixi konsepsiyası üçün mühüm rola malik olan bu baxışlar sistemi dövlət səviyyəsində ardıcıl şəkildə irəli sürülmüşdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2006-cı ilin avqustunda Xarici İşlər Nazirliyində diplomatik xidmət orqanları rəhbərlərinin ikinci müşavirəsində demişdir: "Tarixi baxımdan da Qarabağ həmişə Azərbaycan torpağı olubdur, bizim torpağımızdır. Yəqin, onu da yaxşı bilirsiniz ki, İrəvan Ermənistana Azərbaycan Xalq Cümhuriyyəti yarananda, məhz

---

[1] Əliyev H. Müstəqillyimiz əbədidir. 8-ci kitab.Bakı,1998,s.187

Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən verilmişdir. İrəvan xanlığında yaşayan insanların əksəriyyəti azərbaycanlı idi. Zəngəzur mahalında yaşayanların hamısı azərbaycanlı idi. Ona görə, tarixi baxımdan da bu bizim torpağımızdır."[1] Təkzibedilməz faktlara əsaslanan bu müddəalar Azərbaycanda həm Qarabağ, həm də İrəvan bölgəsi tarixinin hərtərəfli tədqiqinə söykənməklə eyni zamanda, bu tədqiqatların genişləndirilməsinə ciddi təkan vermişdir.

Prezident İlham Əliyev 26 aprel 2011-ci ildə AMEA –nın illik yığıncağındakı nitqində bu məsələyə xüsusi əhəmiyyət verərək qeyd etmişdir ki, "tarix elmləri ilə bağlı olan məsələlər daim diqqət mərkəzindədir. Biz bu məsələyə çox böyük diqqət göstəririk. Mən çox şadam ki, tarixçilərimiz çox sanballı və əsaslı əsərlər yaradırlar. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mövcudluğu bizə diktə edir ki, bu sahəyə daha da böyük diqqət göstərək. Çünki, bu bölgənin tarixi ermənilər tərəfindən daim saxtalaşdırılır, daim təhrif olunur. Şadam ki, alimlərimiz mənim çağırışıma müsbət cavab verərək qısa müddət ərzində bu bölgənin tarixi ilə bağlı çox gözəl və real faktlara əsaslanan əsərlər yaratmışlar. Başlıcası, İrəvan xanlığının tarixi ilə bağlı yaradılan əsərlər xüsusi məna daşıyır. Çünki, əfsuslar olsun ki, dünya birliyi bilmirdi ki, bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranmışdır."[2] Problemin yüksək elmi səviyyədə tədqiqini nəzərə alan Azərbaycan Respublikası Prezidenti yanında Dövlət Mükafatları üzrə Komissiyanın qərarı ilə AMEA-nın müxbir üzvü, professor Yaqub Mahmudovun rəhbərliyi və iştirakı ilə yazılan "Qarabağ: real tarix, faktlar, sənədlər",[3] "Naxçıvan: tarixi və abidələri",[4] "İrəvan xanlığı (Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi)"[5] adlı silsilə əsərlər Dövlət Mükafatına layiq görülmüşdür.

Beləliklə, respublikada Azərbaycanın tarixi-coğrafi bölgələri olan Qarabağ və İrəvanın bütün tarixi dövrləri üzrə mühüm tədqiqatlar nəşr edilmişdir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanla eyni zamanda bir sıra xarici dövlətlərdə də Qarabağ və

---

1 "Azərbaycan" qəzeti,15 avqust 2006-cı il
2 Yenə orada, 27 mart 2011-cı il
3 Mahmudov Y.M., Şükürov K.K.Qarabağ: real tarix, faktlar, sənədlər. Bakı, 2005
4 Naxçıvan: tarixi və abidələri. Bakı, 2007
5 İrəvan xanlığı (Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi). Bakı, 2009

İrəvan tarixinə dair əsərlər yazılmasına səbəb olmuşdur. Ermənistan isə Qarabağ və İrəvan tarixinin saxtalaşdırılması "ənənəsinə" sadiq qalaraq, bu sahədə fitnəkar fəaliyyətini daha da artırmışdır. Qarabağ və İrəvan tarixinə dair tədqiqatlarda xanlıq dövrü xüsusi yer tutmuşdur.Bütün bunlar Azərbaycanın bu tarixi-coğrafi bölgələrinə dair əsərlərin tarixşünaslıq tədqiqinə cəlb edilməsini zəruri problem kimi qarşıya qoymuşdur.

**Tədqiqatın xronoloji çərçivəsi.** Nadir şah Əfşarın (1736-1747) öldürülməsindən sonra onun imperiyası dağılmağa başlayır. Belə bir şəraitdə Azərbaycan ərazisində müstəqil dövlətlər olan xanlıqlar təşəkkül tapır. Azərbaycanda yaranan ilk xanlıqlar içərisində Qarabağ və İrəvan xanlıqları xüsusi yer tuturdu. Qarabağ xanlığı 1822, İrəvan xanlığı isə 1827-ci ilə qədər mövcud olmuşdur. Bu xanlıqlara dair tarixi səpkili ilkin araşdırmalar hələ onların mövcud olduğu zamanlarda yaranmağa başlamışdır. Buna görə də tədqiqatın xronoloji çərçivəsi həmin dövrlərdən başlayır və müasir dövrədək davam edir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Qarabağ və İrəvan xanlıqlarının tarixinin tarixşünaslığını mövzusu probleminin aktuallığına baxmayaraq, o xüsusi tədqiqat obyekti olmamışdır. Bununla birgə, mövzunun bəzi aspektləri müəyyən tədqiqatlarda əks edilmişdir.Onları iki qrupa bölmək olar: 1) Qarabağ və İrəvan tarixinə dair araşdırmaların təhlilinin verildiyi ümumiləşdirilmiş Azərbaycan tarixinin tarixşünaslığına aid əsərlər; 2) Tarixşünaslıq süjetlərinə müəyyən qədər toxunulmuş olan Qarabağ və İrəvan xanlıqlarının tarixinə aid əsərlər.

Birinci qrupa daxil olan əsərlər sırasında Ə.Hüseynzadənin "XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı" əsəri[1] göstərilə bilər. Bu əsərdə müəllif dövrünün xronist-tarixçilərinin, maarifçi demokratların əsərlərini araşdırarkən "Qarabağnamələr"ə də münasibət bildirilmişdir. İkinci qrup əsərlər sırasında F.Əliyev və U.Həsənovun İrəvan xanlığının, [2] F.Abbasovun Qarabağ xanlığının[3] tarixinə həsr edilmiş əsərlərini qeyd etmək olar. Lakin yuxarıda göstərildiyi kimi bunlar Qarabağ və İrəvan xanlıqları tarixinin tarixşünaslığı barədə aydın təsəvvür yaratmır. Bu baxımdan Qarabağ və İrəvan xanlıqlarının tarixşünaslığının kompleks şəkildə araşdırılması zərurəti ortaya şıxır.

---

[1] Hüseynzadə Ə. XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı əsəri. Bakı, 1967

[2] Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı, 1997

[3] Абасов Ф. Карабахское ханство. Баку, 2007

**Tədqiqatın mənbə bazası.** Bütün tarixşünaslıq tədqiqatlarında olduğu kimi bu dissertasiya işində də Qarabağ və İrəvan xanlıqları tarixinə dair əsərlər mənbəşünaslıq vahidi kimi çıxış edir. Bunu nəzərə alaraq Qarabağ və İrəvan tarixinə dair həm Azərbaycanda, həm də xaricdə yazılmış əsərlərin mükəmməl biblioqrafiyası tərtib edilmiş, sonra həmin əsərlər ölkələr və problemlər üzrə sistemləşdirilmişdir. Təbii ki, bu sırada ilk yeri Azərbaycan Qarabağşünaslığı və İrəvanşünaslığı tutur. Azərbaycan Qarabağşünaslığında Mirzə Adıgözəl bəylə Mirzə Camal Cavanşirin Qarabağ xanlığının tarixinə dair əsərləri vacib yer tutur. Sonrakı Qarabağnamələrdə bu iki əsərə geniş müraciət edilmişdir. Bu Qarabağnamələrə Mirzə Yusif Qarabaği, Mir Mehdi Xəzani, Rzaqulu Mirzə Camal oğlunun, Baharlının, Həsənəli Qaradağlının və Mirzə Rəhim Fənanın əsərlərini göstərmək olar.

Dissertasiyada sovet dövrü və dövləti müstəqilliyinin bərpasından sonrakı illərdə Azərbaycan tarixçilərinin Qarabağ və İrəvan xanlıqları tarixinə həsr edilən əsərləri əhatəli tədqiq edilərək elmi cəhətdən qiymətləndirilmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa edildikdən sonra milli tarixşünaslıqda Qarabağ və İrəvan xanlıqları tarixi obyektiv, milli maraqlar baxımından tədqiq olunmuşdur. F.Əliyev və U.Həsənov İrəvan xanlığının, Y.Hüseynov, F.Abbasov,Y.Ağamalı Qarabağ tarixinə dair xüsusi tədqiqatlar aparmışdır. T.Mustafazadə bütövlükdə Azərbaycan xanlıqları, o cümlədən Qarabağ və İrəvan xanlıqlarına kitab və məqalələr həsr etmişdir. AMEA-nın müxbir üzvü Y.M.Mahmudovun rəhbərliyi ilə A.A.Bakıxanov adına Tarix institutunun bir qrup əməkdaşı tərəfindən yazılan "İrəvan xanlığı (Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi)" əsəri xüsusilə dəyərlidir.

Dissertasiya işində erməni müəlliflərinin əsərləri tədqiq edilərək ətraflı təhlil edilmiş, onlara elmi münasibət bildirilmişdir.

Dissertasiyada Türkiyə, İran, Rusiya, Gürcüstan və digər xarici ölkələrdə Qarabağ və İrəvan xanlıqları barədə nəşr edilən əsərlər də tədqiqata cəlb edilərək, tarixşünaslıq baxımından tədqiq edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi Qarabağ və İrəvan xanlıqları tarixinin tarixşünaslığının sistemli şəkildə tədqiq edilməsi, mövcud problemlərin, boşluqların metodoloji cəhətdən düzgün müəyyən edilməsilə yanaşı, əsaslandırılmış təklif və tövsiyyələrin müəyyənləşdirilməsidir. Bu məqsədlə dissertasiya işində aşağıdakı konkret

vəzifələr müəyyən edilmişdir:

-Qarabağ və İrəvan xanlıqları tarixinin öyrənilməsi prosesinin xarakterik xüsusiyyətlərini, gələcəkdə tədqiq ediləcək məsələlərin xronologiyasını müəyyənləşdirmək.

-Qarabağ və İrəvan xanlıqları tarixinin ümumi və fərqli cəhətlərini aydınlaşdırıb, üzə çıxarmaq;

-hər iki xanlıq tarixinin öyrənilməsində Azərbaycan tarixçilərinin əldə etdiyi nailiyyətləri müəyyənləşdirib, tədqiq edilməyən məqamları üzə çıxarmaq;

-erməni tarixçiləri və onların bu qəbildən olan digər müəlliflərinin uydurmalarının əsassız olduğunu yetərli dəlillərlə isbat etmək;

-digər ölkələrdə bu problemlə bağlı çap edilən əsərləri tədqiqata cəlb edib onların elmi cəhətdən əsaslandırılan tənqidi şərhini vermək;

-Qarabağ və İrəvan xanlıqları tarixşünaslığı sahəsində gələcək elmi-tədqiqatların prioritet istiqamətlərini müəyyənləşdirmək.

**Dissertasiya işinin metodoloji əsası**. Tədqiqatın metodoloji əsası tarixi metodla predmetlərin, təzahürlərin yaranması və inkişafı prosesinin konkret tarixi şərait daxilində öyrənilməsini nəzərdə tutur. Eyni zamanda hipotetik-deduktiv (müqayisəli) və elmi analiz kimi aktual metodlardan istifadə edilmişdir.

Tədqiqatda daha çox istifadə edilən metodlardan biri müqayisəli-tarixi metoddur, digər istifadə edilən metod tarixşünaslıqda ana xətti hesab edilən tənqidi yanaşmadır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin əsas elmi yeniliyi ilkin mənbələrə və mövzuya uyğun Qarabağ və İrəvan xanlıqlarına aid tədqiqat əsərlərinin əsaslandırılmış elmi şərhinin və təhlilinin dəyərləndirməsi, bu sahədə mövcud olan boşluqların və yanlışlıqların müəyyənləşdirilməsi, xanlıqların bilavasitə indiki Ermənistan Respublikasına və ermənilərə heç biri aidiyyətinin olmadığının, onların sırf Azərbaycan xanlıqları olduğunun sübut edilməsindən ibarətdir. Dissertasiya işinin konkret elmi yenilikləri aşağıdakılardır.

-tədqiqat prossesinə indiyə qədər Azərbaycan tarixçiləri tərəfindən tədqiq edilməyən mənbələrin və əsərlərin, o cümlədən türk, gürcü, fars, ingilis və erməni tədqiqatçılarının əsərlərinin ilk dəfə Azərbaycan dilinə tərcümə edilərək, hər tərəfli araşdırılması və tənqidi ümumiləşdirilmələrin aparılması;

-Qarabağ və İrəvan xanlıqları ilə bağlı erməni tarixçi və başqa müəlliflərin iddialarının tam əsassız olduğunun tutarlı dəlillərlə sübuta

yetirilməsi;

-xanlıqlar tarixinin ümumi və fərqli cəhətlərinin müəyyən edilməsi;

-Qarabağ və İrəvan xanlıqlarının tarixşünaslığı sahəsində Azərbaycan tarixçilərinin xüsusilə son illərdəki nailiyyətlərinin və nöqsanlarının tənqidi yanaşma əsasında dəyərləndirilməsi;

-ilk dəfə olaraq Qarabağ və İrəvan xanlıqlarının tarixi ilə bağlı İran tarixşünaslığı elmi təsqiqata cəlb olunub;

- ilk dəfə olaraq Qarabağ və İrəvan xanlıqlarının tarixi ilə bağlı türk tarixşünaslığı elmi tədqiqata cəlb olunub;

- ilk dəfə olaraq Qarabağ və İrəvan xanlıqlarının tarixi ilə bağlı erməni tarixşünaslığına dair əsərlər elmi tədqiqata cəlb olunub;

- ilk dəfə Raffinin məlum əsəri tədqiqata cəlb edilib və erməni tarixçilərinin əksəriyyətinin bu əsərə istinad edərək Azərbaycan ərazilərinin uzaq keçmişdə onlara aid olması barədə cəfəng iddialarının yaranma mənbələrindən biri aşkar edilib;

-ilk dəfə olaraq erməni mənşəli Amerika tarixçisi Burnutyanın əsəri elmi tədqiqata cəlb olunub;

-xanlıqların tarixşünaslığı sahəsində gələcək tədqiqatların prioritet istiqamətlərinin müəyyən edilməsini göstərmək olar.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəticələrindən bütövlükdə Qarabağ və İrəvan xanlıqları tarixinin tədqiqi zamanı, ялдя edilən нятисялярдян Азярбайсан тарихи цзря цмумиляшдирилmiş ясярлярin йазылmasında, muzeylərdə ekspozisiyaların tərtib edilməsində, eləcə də али və orta ixtisas təhsili müəssisələrində ümum орта мяктяблярдя Азярбайсан тарихи фяннинин тядриси zamanı, мцщазиря вя семинар dərslərində истифадя едиля биляр.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi AMEA A.A.Bakıxanov adına Tarix institutunun "Azərbaycan yeni tarixi" şöbəsində dəvət olunmuş aparıcı mütəxəssislərin iştirakı ilə müzakirə olunaraq müdafiəyə məsləhət görülmüşdür. Tədqiqatın nəticələri beynəlxalq və respublika miqyasında keçirilən elmi-praktiki konfranslarda məruzələr edilmiş, respublikada və xarici ölkələrdə nəşr olunan elmi jurnallarda Azərbaycan, Türk, Rus və İngilis dillərində nəşr olunmuşdur.

**Dissertasiyanın quruluşu**. Dissertasiya giriş, altı fəsil, nəticə, istifadə edilən qaynaqlar və ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində tədqiqatın aktuallığı əsaslandırılır, onun işləmə dərəcəsi, elmi yeniliyi, məqsəd və vəzifələri, tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti göstərilır.

Birinci fəsil **“Qarabağ və İrəvan xanlıqlarının tarixi XIX əsrin ortalarında Azərbaycan tarixçilərinin əsərlərində”** adlanır. Bu fəsil üç yarımfəsildən ibarətdir

**Birinci yarımfəsli “Mirzə Adıgözəl bəy və onun “Qarabağnamə” -si”** dir, Qarabağ xanlığının tarixinə dair ilk salnamə məhz Mirzə Adıgözəl bəyə məxsusdur.

Əsərin təhlili göstərir ki, Nadirin Muğan qurultayında şah elan edilməsi barədə Mirzə Adıgözəl bəyin məlumatı digər əsərlərdə verilən təsvirlərdən mahiyyətcə fərqlənmir. Mirzə Adıgözəl bəyin əsərində  Qacarların Ziyadoğlu nəslindən olan Qarabağ (Gəncə) bəylərbəyləri gizli yaxud açıq şəkildə Nadirin Səfəviləri hakimiyyətdən məhrum edib, özünü şah elan etməsinə qarşı müqavimət göstərmələri səbəbindən dolayı cəzalandırıldıqları barədə verdiyi məlumat dəqiqliyi ilə həmkarlarının mülahizələrindən fərqlənir.

Əsərdə diqqətəlayiq məqamlar Qarabağ bəylərbəyliyinin sərhədləri və səlahiyyəti barədədir. Mirzə Adıgözəl bəyin “Qarabağnamə”sində Qarabağ xanlığının banisi Pənahəli xanın nəsəb-şəcərəsi, xanlığın əsasının qoyulması qısa təsvir edilir.

Mirzə Adıgözəl bəy yazır ki, Pənahəli bəy Nadir şahdan sonra iqtidarı ələ alan Əliqulu xanın (Adil şah) hakimiyyətini tanıdı, şah ona xanlıq fərmanı, qiymətli xələt, cəvahiratla bəzədilmiş kəmər və başqa hədiyyələr göndərdi. Mirzə Adıgözəl bəyin qeydlərinə görə Pənahəli bəy Adil şah tərəfindən Qarabağ xanı elan edilib. “Qarabağnamə”də 1748-ci ildə Pənahəli xanın Bayatda qala inşa etdirdiyinə rəğmən Qarabağın dağlıq hissəsində erməniləşməyə məruz qalan, əslən xristian-alban Xəmsə məliklərinin narazılığı barədə məlumat izlənilir. Məliklərin təhriki ilə Hacı Çələbi xan Pənahəli xana qarşı çıxsa da, uğur qazanmayıb geri qayıdır.

Bayat qalası ətrafında gedən döyüşlər düzənlikdə inşa edilən qalanın hərbi-strateji mövqeyinin yararsız olduğunu aşkarladı. Pənahəli xan Tərnəkütdə yeni məşhur “Şahbulağı” qalasını inşa etdirdi. Mirzə Adıgözəl bəyin yazdığına görə, Şahbulağı qalasının inşası hicri 1165-ci ildə başa çatmışdı. Bu tarixin miladi 1751-ci il noyabrın 20-dən 1752-ci il noyabrın 7-sinə

qədərki dövrə uyğun gəldiyini nəzərə alsaq, Şahbulağı qalasının inşasının 1751-ci ilin sonu – 1752-ci ildə inşa edildiyini təxmin edə bilərik.

Bir müddət sonra xan iqamətgahını daha etibarlı yerə köçürmək qərarına gəlir.

Vərəndə məliyi Şahnəzər Pənahəli xanın hakimiyyətini tanıyır, ona Şuşakəndin yaxınlığında yeni qala inşa etməyi tövsiyə edir.[1] Beləliklə Pənahabad (Şuşa) qalasının əsası qoyulur.

Əsərdə məliklərin soy-kökünü açıqlayan maraqlı bilgilər var. Mirzə Adıgözəl bəy Dizaq məliyi Yeqanın əslən Loridən olub, xidmətinə görə Nadir şahın əmri ilə məlik təyin edildiyini; Vərəndə məliklərinin əcdadlarının Göyçə əsilzadələrindən, Çiləbörd məliklərinin Mağavizdən gəlmə olduqlarını, müharibədə göstərdikləri xidmətlərinə görə Nadir şahın Allahquluya sultanlıq rütbəsi verməsini; Talış (Gülüstan) məliklərinin əslən Şirvanlı, məlik Usubun isə Gülüstan qalasını zəbt edib özünə məskən saldığını söyləyir.[2] Xəmsə məliklərindən yalnız Xaçın məlikləri yerli alban hökmdarı Həsən Cəlalın nəslindən hesab edilirdi.[3]

Əsərdə Xəmsə məlikləri ilə Pənahəli xanın münasibətlərini açıqlayan dəyərli bilgilər izlənilir.

Son vaxtlar bəzi Azərbaycan tarixçiləri, o cümlədən G.Məmmədova xristian məliklərin ilk olaraq Qarabağda formalaşıb, Səfəvilərin hakimiyyəti dövründə yaranan siyasi şəraitlə bağlı Qarabağı tərk etdiklərini, XVII-XVIII əsrlərdə yenidən öz əvvəlki yaşayış yerlərinə döndüklərini iddia edir.[4]

XVIII əsrin əvvəllərində Qarabağın xristian məliklərinin özlərini “aqvan” (yəni alban) adlandırmaları[5] erməni və ermənipərəst rus tarixçilərinin Qarabağ məliklərinin erməni mənşəli olmaları barədə iddialarının elmi əsasının olmadığını təsdiqləyir. Mənşəcə alban məliklər xristianlığın qriqoryan məzhəbinə mənsub idilər, onları yanlış olaraq “erməni” adlandırırdılar.

---

[1] Mirzə Adıgözəl bəy. Qarabağnamə // Qarabağnamələr, I kitab. Bakı, 2006, s.35.
[2] Yenə orada, s.36-37.
[3] Yenə orada.
[4] Мамедова Г. К вопросу о христианских меликах и меликствах Северного Азербайджана в XVIII веке // Карабах: Кюрекчайский договор – 200. Баку, 2004, с.75.
[5] Армяно-русские отношения в первой третий XVIII века. Т.2, ч.2. Ереван, 1967, с.32; T. Mustafayev. Qarabağ bəylərbəyliyi XVIII əsrin birinci qərinəsində // Azərbaycan SSR EA Xəbərləri, Tarix, fəlsəfə və hüquq seriyası. 1988-ci il, №3

Mirzə Adıgözəl bəy Pənahəli xanın ətraf xanlıqları özündən asılı vəziyyətə salması, Şuşa qalasının inşası, Məhəmməd Həsən Qacarın Qarabağa yürüşü barədə məlumat verir. Qarabağ hakiminin xanlıq daxilində asayişi bərqərar etdikdən sonra Gəncə, Qaradağ, Ərdəbil və Naxçıvan xanlarını tabe etmək niyyətində olduğunu, rəqiblərinin bəzilərini zorla, digərlərini diplomatik vasitələrlə özündən asılı vəziyyətə saldığını açıqlayır.[1]

"Qarabağnamə"də Pənahəli xanın Kərim xan Zəndlə Urmiyalı Fətəli xana qarşı mübarizəsi, Fətəli xanın məğlubiyyətə uğraması, Kərim xanın İbrahimxəlil ağanı azad edib Qarabağ xanı təyin etməsi, Pənahəli xanla digər Azərbaycan xanlarının Şiraza aparılması barədə bilgilər izlənir.

Müəllif İbrahimxəlil xanın hakimiyyəti dövründə Qarabağda baş verən hadisələri təsvir edir, İbrahimxəlil xanın heç bir dövlətdən asılı olmadığını, əksinə, bəzi xanlıqların ondan asılı olduğu söyləyir, bununla mübaliğəyə yol verir. Qaradağ, Təbriz, Naxçıvan və Ərdəbil xanlıqları müxtəlif vaxtlarda həqiqətən Qarabağ hakimindən asılı idilər, Şəki, Xoy, Marağa, İrəvan xanlıqlarının İbrahimxəlil xandan asılı olduğu heç bir mənbədə izlənilmir. Mirzə Adıgözəl bəy Ümmə xanla qohumluq münasibətində olan İbrahimxəlil xanın yeri gəldikdə avar qoşunlarının köməyindən bəhrələndiyini qeyd edir.[2]

Qeyd edək ki, "Qarabağnamə"nin mətnində texniki qüsurlar var.

Mirzə Adıgözəl bəy Ağa Məhəmməd xanla İbrahimxəlil xanın münasibətlərində sərinləşmənin səbəbini açıqlamır, Qacarın böyük ordu ilə Qarabağ, Talış və İrəvana hücum etdiyini yazır, II İraklinin, Məhəmməd xan İrəvanlının, Mir Mustafa xan Lənkəranlının Ağa Məhəmməd xana qarşı birgə mübarizə aparacaqları barədə ittifaq bağladıqlarını qeyd edir.[3] Sonra Şuşa qalasının 33 günlük mühasirə tarixçəsi təsvir edilir.

Mirzə Adıgözəl bəy Ağa Məhəmməd xanın Şuşanın mühasirəsindən əl çəkməsinin yeganə səbəbini uğursuzluq və itkidən ehtiyatlanması ilə əlaqələndirir. Əslində II İraklinin İbrahimxəlil xana kömək vəd etməsi ilə ruslara arxalanması kimi daha maraqlı siyasi amillər mövcud idi.

Əsərdə V.Zubovun başçılığı altında rus qoşunlarının 1796-cı ildə Azərbaycana yürüşü təsvir edilir.

Mirzə Adıgözəl bəyin "Qarabağnamə"sində İrəvan xanlığı ilə bağlı bəzi məlumatlar açıqlanır, Sisianovun İrəvana səfəri zamanı uğursuzluqla geri

[1] Mirzə Adıgözəl bəy. Göstərilən əsəri, s. 39.
[2] Yenə orada, s.49.
[3] Yenə orada, s.50.

qayıtması barədə məlumat verilir. Mirzə Adıgözəl bəyin yazdıqlarına inansaq irəvanlı Məhəmməd xanın Sisianovu məktubla İrəvana dəvət etdiyini izləmiş olarıq.

Əsərdə İbrahimxəlil xanla şəkili Səlim xanın general Sisianovla 1805-ci il Kürəkçay müqaviləsinin bağlanması, Sisianovun Bakıya yürüşü, burada qətlə yetirilməsi və s. hadisələr öz əksini tapmışdır.

Mirzə Adıgözəl bəy II Rusiya-İran müharibəsi dövründə İrəvan şəhərinin ruslar tərəfindən zəbt edilməsini şərh edir: Sərdarabad qalasını alıb oradan çoxsaylı ərzaq, sursatı ələ keçirən ruslar İrəvana doğru hərəkət etdi. Paşkeviç ağır artilleriya ilə İrəvanın bürc və divarlarını dağıdıb qalanı aldı.[1]

**I fəslin "Mirzə Camal Cavanşir Qarabaği və onun "Qarabağ tarixi" adlı 2-ci yarımfəslində** Mirzə Camal Cavanşirin həyatı təsvir edilir.

Qeyd edilir ki, Mirzə Adıgözəl bəyin "Qarabağnamə"si ilə Mirzə Camalın "Qarabağ tarixi" əsərləri eyni dövrdə baş verən hadisələrdən bəhs etdiyi üçün, bir-birinə çox bənzəyir. Bu oxşarlığı əsas götürən V.N.Leviatov yanlış olaraq Mirzə Adıgözəl bəyin Mirzə Camalın əsərindən istifadə etdiyini iddia edir.[2] Mirzə Camal Cavanşir müqəddimədə əsərini 1847-ci ildə yazdığını qeyd edir. Bu fakt V.N.Leviatovun yanlış mülahizə irəli sürdüyünü təsdiqləyir. Hər iki müəllif xalq arasında dolaşan rəvayətlərə istinad etdikləri üçün bu bənzərlik təsadüfı səciyyə daşıyır.[3] Qeyd etməliyik ki, oxşarlıqları ilə yanaşı, bu əsərlər arasında fərqlər kifayət qədərdir.

"Qarabağ tarixi"ndə xanlığın sərhədləri təsvir edilir (Mirzə Adıgözəl bəyin "Qarabağnamə"sində bu barədə məlumat yoxdur), əsərdə Qarabağda mövcud olan kanallar, arxlar barədə bilgilər dəyərlidir .

Mirzə Camal Cavanşir də Pənahəli xanın mənşəyi, hökmranlığı barədə məlumat verir, Şirvan, Şəki hakimlərinin Pənahəli xanı təhlükəli rəqib hesab etdiklərinə görə ona qarşı ittifaq bağladıqlarını qeyd edir.[4]

Əsərdə İbrahimxəlil xanın hakimiyyəti, o dövrdə baş verən hadisələr barədə məlumatlar verilir. Mirzə Camal İbrahimxəlil xanın hicri 1174-cü ildən (miladi 1760-61-cı illər) 1806-cı ilə qədər xanlıq taxtında oturduğunu (Mirzə Adıgözəl bəy isə İbrahimxəlil xanın hicri 1173-cü ildə hakimiyyətə

---

[1] Mirzə Adıgözəl bəy. Göstərilən əsəri, s.87.
[2] V.N.Leviatovun "Qarabağnamə"yə müqəddiməsi // Qarabağnamələr. I kitab. Bakı, 1989, s.26.
[3] Hüseynzadə Ə. XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı. B., 1967, s.105.
[4] Yenə orada, s. 111-112.

başladığını[1]) qeyd edir.[2] Göründüyü kimi, müəllif yanlış mülahizələr yürüdür, tarixi ədəbiyyatda İbrahimxəlil xanın 1763-cü ildən Qarabağ taxtına çıxdığı qəbul edilib.

Mirzə Adıgözəl bəylə, Mirzə Camal İbrahimxəlil xanın qonşu xanlıqlar üzərində hökmranlığının hökm və fərmanlarının Şirvan, Şəki, Gəncə, İrəvan, Naxçıvan, Xoy, Qarabağ, Təbriz, Ərdəbil vilayətləri, hətta Marağa, İraqla Azərbaycan sərhədi olan Qaplaguhda belə işlədiyini yazır[3]. Bu yanlış mülahizələr hər iki müəllifin əsərində izlənilir.

Əsərdə Ağa Məhəmməd Qacarın Qarabağa yürüşləri, burada qətlə yetirilməsi qısa şərh edilir.

Mirzə Camal Mirzə Adıgözəl bəydən fərqli olaraq Qacarın birinci yürüşü zamanı Qarabağda rast gəldiyi müqaviməti daha ətraflı şərh edir, Gəncəli Cavad xanla məlik Məcnunun Qacara bələdçilik etdiyini açıqlayır.

Mirzə Adıgözəl bəy İbrahimxəlil xanın Qacarın başını sovqat kimi II İrakliyə göndərdiyini yazır, Mirzə Camal əksinə, qeyd edir ki, İbrahimxəlil xan "Nəcabətin və ehtiramın tələbinə görə, şahın başını tam bir hörmətlə, qüsl və kəfən etdirib, lazımi dini mərasim qaydalarını yaxşı bilən mötəbər mollalarla Cara göndərib, o yerin böyük adamlarının qəbiristanlığında dəfn etdirdi".[4]

Mirzə Adıgözəl bəydən fərqli, Mirzə Camal Kürəkçay müqaviləsinin bağlanması və şərtləri barədə daha geniş məlumat verir.

Müəllifin İbrahimxəlil xanın ruslar tərəfindən qətlə yetirilməsi barədə verdiyi təfsilatlı məlumat qiymətli olduğu üçün diqqəti cəlb edir. Mayor Lisaneviç gecə bir dəstə ilə xanın yaşadığı mənzilə gedir, xanı bir neçə ailə üzvü və yaxın adamları ilə birlikdə öldürür.[5]

Mirzə Camalın "Qarabağ tarixi" əsərinin sonunda "fəsil" adlandırılan qısa əlavələrdə Pənahəli xanla İbrahimxəlil xanın tikdirdiyi bina və imarətlər, qoşunun yaradılması, İbrahimxəlil xanın ailə üzvləri barədə məlumatlar mövcuddur.

Beləliklə, əsərin təhlili aşkar edir ki, müəyyən məqamlar nəzərə alınmasa, Mirzə Camalın "Qarabağ tarixi" əsəri Mirzə Adıgözəl bəyin "Qara-

---

[1] Mirzə Adıgözəl bəy. Göstərilən əsəri, s. 48.

[2] Mirzə Camal Cavanşir. Qarabağ tarixi // Qarabağnamələr. I kitab. Bakı, 2006, s.120.

[3] Yenə orada, s.120-121.

[4] Yenə orada, s. 128.

[5] Yenə orada, s. 140.

bağnamə"si ilə müqayisə edildikdə fərqlər açıq-aydın görünür.

Mirzə Camal yeri gəldikcə öz əsərində İrəvan xanlığının tarixinə nəzər yetirib, Şəki, Gəncə, Naxçıvan, Təbriz və bir sıra ərazilərin xanları ilə bərabər İrəvan xanının Pənahəli xana elçi və məktub göndərib onunla dost və müttəfiq olmaq istədiyini açıqlayır[1].

Mirzə Camal 1804-cü ildə general Sisianovun İrəvana etdiyi yürüş barədə nisbətən geniş məlumat verir.

**I fəslin üçüncü yarımfəslində "A.A.Bakıxanovun "Gülüstani-İrəm" əsərində** Qarabağ xanlığının tarixi məsələləri"[2] tədqiq edilir. Əsərin beşinci fəslində Azərbaycanın digər xanlıqları, o cümlədən Qarabağ xanlığının tarixi aspektləri araşdırılır. Nadir şahın yaratdığı imperiyanın 1747-ci ildə dağıldığını qısa təsvir edən A.Bakıxanovun əsərində 1752-ci ildə Pənahəli xanın digər xanlarla birgə gürcü çarına əsir düşməsi, şəkili Hacı Çələbi xan tərəfindən azad edilməsi açıqlanır. Müəllif urmiyalı Fətəli şah Əfşarın Qarabağa hücumunun dəqiq tarixini (1762-ci il) göstərir.[3] O, Ağa Məhəmməd xan Qacarın Qarabağa yürüşləri barədə qısa məlumat verir.

A.A.Bakıxanov İbrahimxəlil xanın ruslar tərəfindən qətlə yetirildiyini təsvir edir: "Qarabağlı İbrahim xan ... İran dövlətinə ixlas göstərirdi. Onun xahişinə görə oğlu Əbülfət xan bir dəstə qoşunla Qapan yolunda Şuşa qalasının yanına gəldi. Naibüs-səltənə özü də Xudafərin körpüsündən keçdi. Şuşada sakin olan rus qoşununun komandiri mayor Lisaneviç hicri 1221-ci ildə (miladi 1806-cı il iyun ayının 2-də) gecə yarısı qalanın xaricində köç və külfətilə yerləşən İbrahim xanın üzərinə basqın edib onu arvadı, oğlu, qızı və bir çox əyan və xadimlərilə bir yerdə öldürdü. İbrahim xan hünərli, ədalətli, mərd və sadə rəftarlı bir əmir idi".[4]

Dissertasiyanın ikinci fəsli "**XIX əsrin ikinci yarısı XX əsrin əvvəlləri Azərbaycan tarixçilərinin əsərlərində Qarabağ və İrəvan xanlıqları tarixinin əksi" adlanır, 7 yarımfəsildən ibarətdir**.

Bu dövrdə Azərbaycan tarixinə həsr edilən əsərlər bir qayda olaraq salnaməçilik ənənələri əsasında yazılırdı. A.Bakıxanov əsrin ortalarında yeni tarixi konsepsiya yaratdı, o dövrün tarixçiləri, Ə.Hüseynzadənin qeyd etdiyi kimi, "əsas etibarilə Mirzə Adıgözəl bəylə Mirzə Camal Cavanşirin ta-

[1] Mirzə Camal. Göstərilən əsəri, s. 113.
[2] Abbasqulu ağa Bakıxanov. Gülüstani-İrəm. Bakı, 1951, s. 252.
[3] Yenə orada, s.366.
[4] Yenə orada, s.390.

rixi ənənələrini davam etdirdilər”.[1]

**II fəslin birinci yarımfəsli “Mirzə Yusif Qarabaği və onun “Tarixi-safi” əsəridir.**

“Tarixi-safi”nin mətnində, M.Çamçiyanla Mirzə Mehdi xan Astrabadi istisna olmaqla, heç bir tarixçinin adı çəkilmir. Müəllif Mirzə Adıgözəl bəylə Mirzə Camalın əsərlərindən istifadə etdiyini gizlədir, özünün milli mənsubiyyətindən doğan qərəzkarlığını büruzə verir.

Mirzə Yusifin bu əsəri yazmaqda əsas məqsədi Qafqazın Rusiya tərəfindən işğalını (müəllif özü bunu “birləşdirmə” adlandırır) “obyektiv şəkildə verməkdən” ibarət olub.[2]

Mirzə Yusif Qarabağ xanlarının mənşəyi barədə verdiyi məlumatlarda əsasən özündən əvvəlki tarixçilərin – Mirzə Adıgözəl bəylə Mirzə Camalın verdiyi məlumatları təkrarlasa da, müəyyən fərqli fikirlər söyləyir.[3]

Mirzə Yusif Qarabağinin “Tarixi-safi” əsəri digər “Qarabağnamələr”lə müqayisədə, elmi səviyyəsinə görə yetkin deyil, lakin fərqli cəhətlərə malikdir. Müəllif Rusiya dövlətini ideallaşdırır, rus hərbiçilərinə haqq qazandırır və çoxsaylı təhriflərə yol verir. O, obyektiv olmağı barədə verdiyi sözə sadiq qalmır, sətiraltı xristian təəssübkeşliyini biruzə verir.

**II fəslin ikinci yarımfəslində “Əhməd bəy Cavanşirin “Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair” əsəri təhlil edilir**.

Bu əsərin kompilyativ səciyyə daşıdığı barədə tarixşünaslıqda qəbul edilən fikir təqdirəlayiqdir.

**II fəslin üçüncü yarımfəsli “Mir Mehdi Xəzani və onun“Kitabi-tarixi-Qarabağ” əsəri” dir**.

Mir Mehdi Xəzani haqqında nisbətən düzgün məlumatı ilk dəfə Ə.Quliyevlə İ.Həsənov birgə yazdıqları “XIX əsrin ikinci yarısında Azərbaycan tarix elmi” adlı məqalədə vermişlər. Həmin müəlliflərin İ.Striqunovla birgə yazdıqları məqaləsində[4] Mir Mehdi Xəzani barədə daha dolğun bilgilər verilir, Xəzaninin dünyagörüşü xarakterizə edilir, “Qarabağ tarixi” əsərinin

---

[1] Hüseynzadə Ə. Göstərilən əsəri, s. 87.
[2] Yenə orada, s.96.
[3] Mirzə Yusif Qarabaği. Tarixi-Safi // Qarabağnamələr. II kitab. Bakı, 2006, s.15.
[4] Гулиев А., Гасанов И.. Историческая наука в Азербайджане во второй половине XIX века // Azərbaycan SSR EA Tarix İnstitutunun əsərləri, XIII cild, Bakı, 1958, s.235-236.

müxtəsər məzmunu açıqlanır.[1] Kitabın müqəddimə, iyirmi dörd fəsil, bir xatimədən ibarət olduğu bildirilir (əslində 25 fəsildən ibarətdir).

Əsərdə Qarabağın sərhədləri təsvir edilir, Pənahəli xanın əsli-nəcabəti barədə Mirzə Adıgözəl bəylə Mirzə Camalın məlumatları təkrarlanır. Müəllif Pənahəli xanın Çingiz xanın törəmələrindən olması müddəası ilə razılaşır,[2] Bayat qalasının inşası, Hacı Çələbi xanın Qarabağa hücumu barədə məlumat verir.

Mir Mehdi Xəzani Fətəli şahla İbrahimxəlil xanın düşmənçilik münasibətlərinin səbəblərini izah edir,[3] rus qoşunlarının Qarabağa gəlişi və ruslarla Qızılbaşlar arasında baş verən döyüşlər barədə açıqlamalar verir. Bu fəsildə diqqət çəkən məqamlardan biri, Xəzaninin digər "Qarabağnamə" müəllifləri kimi, ruslar tərəfindən verilən itkilərin sayını azaltmağa meylli olmasıdır.[4]

**II fəslin dördüncü yarımfəsli "Rzaqulu bəy Mirzə Camal oğlunun "Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri"** adlanır. Rzaqulu bəy əsəri 1863-1881-ci illərdə yazıb, əsər ilk dəfə 1991-ci ildə "Qarabağnamələr"in ikinci kitabında nəşr edilib. Mətni diqqətlə nəzərdən keçirdikdə onun əhəmiyyətli hissəsinin Mirzə Camalın əsərindən köçürüldüyü  ya da xülasə edildiyi, müəyyən üslub, ifadə və cümlə dəyişikliklərinin olduğu izlənilir. Rzaqulu bəyin Əsgəran qalaları barədə verdiyi bilgilər diqqət çəkir.

Qarabağ torpaqlarının məhsuldar olduğunu açıqlayan sonuncu hissə tamamilə yenidir. Qarabağı "hər cəhətdən yer üzünün behişti" adlandıran müəllif "Qarabağın dağlıq yerləri, yaylaqlarının Göyçə sərhədindən tutmuş Ordubada qədər başdan-başa cənnətə bənzər çəmənlik" olduğunu qeyd edir, yaylaq olmasına baxmayaraq, burada qışda  mal-qara, qoyun saxlamağın mümkün olduğunu, vurğulayır.[5] Rzaqulu bəy xanlıq dövründə kənd təsərrüfatında mövcud üstün cəhətləri, kəndlilərin nisbətən firavan yaşadıqları ba-

---

[1] Quliyev Ə., Həsənov İ., Striqunov İ. XIX əsrdə və XX əsrin əvvəllərində Azərbaycanda tarix elminin inkişafı. Bakı, 1960, s.55-56.

[2] Mir Mehdi Xəzani. Kitabi-tarixi-Qarabağ // Qarabağnamələr. II kitab. Bakı, 2006, s.105.

[3] Yenə orada, s.136.

[4] Yenə orada.

[5] Rzaqulu bəy Mirzə Camal oğlu. Pənah xan və Ibrahim xanın Qarabagda hakimiyyətləri və o zamanın hadisələri // Qarabağnamələr. II kitab. Bakı, 2006, s.245-246.

rədə məlumat verir, xanlığın ləğvindən sonra, Rusiya işğalı dövründə bir çox kəndlərin boşaldığını, kəndlilərin vəziyyətinin kəskin pisləşdiyini qeyd edir.[1]

**II fəslin beşinci yarımfəsli "Baharlının "Əhvalati-Qarabağ" əsəri" adlanır**. Müəllif bu əsəri 1888-ci ildə yazmışdır.[2]

Əsər tarixi salnamə kimi təqdim edilə bilməz. Müəllif xalq arasınada yayılan folklorsayağı əfsanələri qələmə almaqla, tarixi təhrif edib, uydurma məlumatlar söyləyib. Baharlının "Əhvalati Qarabağ" əsəri digər mənbələrlə müqayisə edilməklə, tarixçilər tərəfindən tədqiqatlara cəlb edilə bilər.

**Dissertasiyanın II fəslinin altıncı yarımfəsli "Həsənəli Qaradağinin "Qarabağ vilayətinin qədim və cədid keyfiyyət və övzaları ..." əsəridir**. Əsər 1880-ci ildə yazılıb, müəllifin sağlığında çap edilib. Əsərin 1991-ci ildə çap edilən hissəsi ilə tanışlıq onun Mirzə Camal Cavanşirin "Qarabağnamə"sinin əsasında yazıldığı aşkarlayır.

**Dissertasiyanın II fəslinin yeddinci yarımfəsli salnamə üslubunda yazılan "Mirzə Rəhim Fənanın "Tarixi-cədidi-Qarabağ" əsəri"dir**. Əsərin fraqmentləri 1991-ci ildə "Qarabağnamələr"in ikinci kitabında nəşr edilib.

Mirzə Rəhim, "Qarabağnamə" müəlliflərindən fərqli, ilk dəfə 1805-ci il Kürəkçay əhdnaməsinin tam 11 maddəsini açıqlayıb.[3]

Dissertasiyanın **"Qarabağ və İrəvan xanlıqlarının tarixi Azərbaycan sovet tarixşünaslığında" adlanan III fəslinin birinci yarımfəslində XX əsrin 40-50-ci illərinin tarixşünaslığı araşdırılıb.**

Sovet dövründə ilk dəfə Ə.Qubaydulinin xanlıqlar dövrü aqrar münasibətlərə və kənd təsərrüfatının vəziyyətinə həsr etdiyi bir sıra məqalələrində[4] Qarabağ xanlığının sosial-iqtisadi həyatı araşdırılıb.

XX əsrin 40-cı illərinin sonlarında Ə.Şükürzadə Qarabağ xanlığında dövlət quruluşu mövzusuna aid dissertasiya yazıb, əsər Azərbaycanın, Ru-

---

[1] Rzaqulu bəy Mirzə Camal oğlu. Göstərilən əsəri, s. 246.

[2] Baharlı. Əhvalati-Qarabağ // Qarabağnamələr. II kitab. Bakı, 1991, s.272.

[3] Mirzə Rəhim Fəna. Tarixi-cədidi-Qarabağ // Qarabağnamələr. II kitab. Bakı, 1991, s.266-267.

[4] Губайдулин А. Феодальные классы и крестьянство в Азербайджане в XIX в. // Известия Восточного факультета АГУ. Баку, 1928, № 3. Yenə onun. Вакуфные имущества Азербайджана // Известия Общества обследования и изучения Азербайджана. 1928, №5, с.215-226. Yenə onun. Из истории шелководства в Азербайджане // Известия Общества обследования и изучения Азербайджана, 1928, №5, с.154-171.

siyanın kitabxana və arxivlərində aşkar edilməyib.

M.Mustafayev 1941-ci ildə iqtisad elmləri namizədi dərəcəsi almaq üçün "Qarabağ xanlığının iqtisadiyyatı" adlı dissertasiyanı,[1] müharibədən sonra 1952-ci ildə tamamlayıb. M.Mustafayevin əsərində, o dövrün tələblərilə uzlaşan bir sıra nöqsanlar, çatışmazlıqlar mövcuddur.[2]

Azərbaycan xanlıqları, o cümlədən Qarabağ xanlığının tədqiqində V.Leviatovun xidmətləri danılmazdır. Onun 1948-ci ildə nəşr etdirdiyi "XVIII əsrdə Azərbaycan tarixindən xülasələr" əsərində əsas tədqiqat obyekti xanlıqlar dövrüdür.[3] Leviatov Azərbaycan xanlıqlarında torpaq sahibliyi, rəiyyətlər, rəncbərlər və elatların, sənətkarlıq və ticarətin, şəhərlərin vəziyyətini təsvir edir, ölkənin iqtisadi inkişafına qiymət verir, xanların hakimiyyətinin ümumi səciyyəsini açıqlayır, konkret olaraq xanlıqların, o cümlədən Qarabağ xanlığı tarixinin öyrənilməsi sahəsində mühüm istiqamətverici, əhəmiyyətli bilgilər təqdim edir. Əsərdə Ağa Məhəmməd xan Qacarın Qarabağa etdiyi yürüşlərə xüsusi bölmələr həsr edilib.

Leviatovun əsəri dəyərli olmaqla yanaşı, bir çox xətaları ilə seçilir. O, xanlıqlarda, o cümlədən Qarabağda kəndlilərin torpağa təhkim edildiyini iddia etməklə ciddi yanlışlığa yol verir,[4] Qarabağ xanlığının yaranma tarixinə həsr etdiyi bölmə qısa və qeyri-dəqiqdir.[5]

İ.Petruşevski 1945-ci ildə Azərbaycan xanlıqlarına həsr etdiyi məqaləsində[6] Azərbaycan xanlıqlarının, o cümlədən Qarabağ xanlığının birmənalı Rusiyaya meyl etdiyini iddia edir. Azərbaycanda aqrar münasibətlər tarixinin öyrənilməsində İ.Petruşevskinin xidmətləri danılmazdır, lakin ərazi məsələlərinə münasibəti erməni tarixçilərinin təsiri altında olduğunu aşkarlayır. O, yanlış iddiası ilə İrəvan xanlığı ərazisini, Qarabağ xanlığının bəzi mahallarını (Zəngəzur, Qapan) Ermənistan ərazisi zənn edir, həmçinin Qarabağın dağlıq hissəsində müəyyən qədər erməniləşməyə məruz qalan albanları qriqoryan məzhəbinə aid olduqları üçün erməni məlikləri kimi təq-

---

[1] Мустафаев М. Экономика Карабахского ханства в конце XVIII и первой четверти XIX в. Диссертация на соискание ученой степени кандидата экономических наук. М., 1949, 122 с.

[2] Yenə orada, s.22.

[3] Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII веке. Баку, 1948, 228 с.

[4] Yenə orada, s. 46.

[5] Yenə orada, s.127.

[6] Петрушевский И.П. Ханства Азербайджана XVIII в. и возникновение русской ориентации. Изв. АН Азерб. ССР, вып. 2, 1945, №5.

dim edir.[1]

XX əsrin 50-ci illərinin sonu – 60-cı illərin əvvəllərində çapdan çıxan üçcildli "Azərbaycan tarixi"nin birinci cildində xanlıqlar dövrünə ayrıca, kifayət qədər irihəcmli fəsil həsr edilib. Fəsildə bütövlükdə xanlıqlar dövrü araşdırılır, Qarabağ xanlığına aid ayrıca bölmə təqdim edilir.

Üçcildliyin ikinci cildində Qarabağ xanlığının Rusiya protektorluğuna qəbulu, 1805-ci il Kürəkçay müqaviləsi barədə məlumat verilib. Dövrün tələblərinə müvafiq bu mühüm hadisə Azərbaycanda Rusiyaya güclü meylin olmasının təzahürü kimi qiymətləndirilib[2] ki, bununla razılaşmaq qeyri-mümkündür.

**III fəslin "XX əsrin 60-80-ci illərinin tarixşünaslığı" adlanan ikinci yarımfəslində** əvvəlcə şair, dramaturq, nasir Həsən İxfa Əlizadənin (1893-1972) 1963-cü ildə "Şuşa şəhərinin tarixi"nə həsr etdiyi əsər təhlil edilir.[3]

Həsən İxfa Əlizadə "tarixi qeydləri"ni yazdığı zaman Mirzə Adıgözəl bəylə Mirzə Camal və A.Bakıxanovun əsərlərindən, M.Baharlının "Qafqaz tarixi", R.İsmayılovun "Azərbaycan tarixi", habelə 1961-ci ildə nəşr edilən üçcildlik "Azərbaycan tarixi", digər müəlliflərin əsərlərindən istifadə etdiyini bildirir.[4] Əlizadə elmi tədqiqat metodlarına müraciət etmədiyi üçün əsərin peşəkar səviyyədə yazılmasına nail ola bilməyib.

H.Abdullayevin 1965-ci ildə işıq üzü görən Azərbaycanın XVIII əsr tarixinə (başlıca olaraq XVIII əsrin 50-70-ci illərinə) həsr etdiyi sanballı monoqrafiyasında Quba xanlığı, onun Rusiya ilə münasibətləri başlıca tədqiqat obyekti olsa da, müəllif Qarabağ xanlığının tarixinə müraciət edib. Müəllif Otuz iki, Cavanşir və Kəbirli tayfalarının xanlığın özəyi, Cavanşir tayfasının Bəhmənli tayfasından törəmə olduğunu qeyd edir.[5]

Məliklərin separatçı fəaliyyətinə qəsdən dini, milli rəng verib müsəlman türklərlə xristian ermənilər arasında gedən mübarizə hesab edən erməni "tarixçiləri"ni haqlı tənqid edən H.Abdullayev ədalətli qərarını verir, məliklərlə mərkəzi xan hakimiyyəti uğrunda mübarizəni feodal sinfinin təbəələr, gəlir və s. uğrunda apardiqları mübarizədən başqa bir şey olmadığını

---

[1] Петрушевский И.П. Göstərilən əsəri, s. 137.
[2] Azərbaycan tarixi (III cilddə). I cild, s.401.
[3] Həsən İxfa Əlizadə. Şuşa şəhərinin tarixi // Qarabağnamələr. II kitab. Bakı, 1991.
[4] Yenə orada, s.312.
[5] Абдуллаев Г.Б. Азербайджан в XVIII веке и взаимоотношения его с Россией. Баку, 1965, s.91.

açıqlayır.[1]

H.Abdullayevin əsərində “Bayat müharibəsi”, Bayat, Şahbulağı və Şuşa qalalarının salınma tarixini açıqlayan bilgilərə rast gəlirik. V.Leviatov kimi, H.Abdullayev Pənahəli xanın hakimiyyətinin sonu və Şuşa qalasının salınma (1751) tarixini yanlış göstərib.[2]

H.Abdullayev Qarabağ xanlığında təsərrüfat həyatı və sosial-iqtisadi münasibətlərə qiymət verib, müvafiq nümunələr, faktlar açıqlayıb.

F.Əliyevin XVIII əsrin ikinci yarısında Şimali Azərbaycan şəhərlərinin tarixinə həsr etdiyi əsərində[3] Şuşa şəhərinin salınma tarixi, xanlıq dövründə şəhərin vəziyyəti ilə bağlı müəyyən bilgilər mövcuddur.

Ə.Hüseynzadənin 1959-cu ildə yazdığı məqalədə[4] Şuşadakı Gövhər ağa vəqfi, 1961-ci ildə yazdığı digər məqaləsində Qarabağ xanlığında geniş yayılan bəhrə vergisi[5] barədə məlumatlar izlənilir, müəllifin 1967-ci ildə yazdığı monoqrafiyasında[6] “Qarabağnamələr” qısaca təhlil edilir.

Rus-sovet tarixçisi O.Markova erməni və ermənipərəst rus müəlliflərindən fərqli, tarixi faktlara söykənən bilgilərində, Qarabağ xanlığını Azərbaycan (Şimali Azərbaycan) ərazisi kimi təqdim edir.[7] Bununla belə Markova Qarabağ xanlığının gənc dövlət qurumu olduğunu, Nadir şah tərəfindən iranlıların (Azərbaycan türklərinin – Z.H.) erməni feodallarına daha səmərəli nəzarət etmələri üçün yaradıldığını iddia edir,[8] yanlış bilgilər təqdim edir.

D.İsmayılzadə öz məqaləsində XX əsrdə Azərbaycanda köçəri təsərrüfatın olduğunu iddia edir[9]. Tanınmış tarixçi M.İsmayılov yanlış müddəala-

---

[1] Абдуллаев Г.Б. Göstərilən əsəri, s. 93.
[2] Yenə orada, s.94-95.
[3] Əliyev F. Şimali Azərbaycan şəhərləri (XVIII əsrin ikinci yarısında). Bakı, 1960.
[4] Hüseynzadə Ə.. Gövhər ağa vəqfi // Azərb. SSR EA Xəbərləri. İctimai elmlər bölməsi. 1959, №1.
[5] Hüseynzadə Ə.. “Bəhrə” istilahi haqqında // Azərb. SSR EA məruzələri. 1961, XXVI, s.1097-1101.
[6] Hüseynzadə Ə. XIX əsrin II yarısında Azərbaycan tarixşünaslığı. Bakı, 1967, 220 s.
[7] Маркова О.П.. Россия, Закавказье и международное отношение в XVIII в. М., 1966, с.182.
[8] Yenə orada.
[9] Исмаилзаде Д.И. Из истории кочевого хозяйства Азербайджана первой половины XIX в. // Исторические записки, 1960, №66, с.91-136.

rın əsassız olduğunu sübut edən məqalələrində,[1] nəinki xanlıqlar, ümumiyyətlə Azərbaycanda köçəri həyat tərzi sürən əhalinin olmadığını, yaylaq-qışlaq maldarlığının inkişaf etdiyini, maldarlıqla yanaşı onların sırf oturaq təsərrüfat sahəsi – əkinçiliklə məşğul olduqlarını qeyd edib.

H.Ə.Dəlili 1971-ci ildə yazdığı məqalədə Pənahəli xanın ölüm tarixini dəqiqləşdirməyə çalışıb. İndiyə qədər Qarabağ xanlığı ilə əlaqədar tədqiqat aparan müəlliflər Pənahəli xanın məzar daşı üzərindəki kitabəyə əsaslanaraq, onun 1758-ci ildə vəfat etdiyini söyləyirlər. Dəlili Pənahəli xanın 1763-cü ildə sağ olduğunu sübut edir, həmin ilin axırlarında özünü həlak etdiyini açıqlayır. Tədqiqatçı güman edir ki, Pənahəli xanın məzar daşı onun ölümündən bir müddət sonra hazır olduğu üçün, ölüm tarixini qeyd edənlər yanlışlığa yol verib.[2]

H.Ə.Dəlili Urmiya xanlığının tarixinə həsr etdiyi dissertasiyasında[3] və Azərbaycanın cənub xanlıqlarının tarixini əks etdirən əsərində[4] Urmiya və Qarabağ xanlıqlarının münasibətlərinə dair maraqlı faktlar açıqlayır.

Şuşa şəhərinin salınma tarixi, quruluşu barədə maraqlı bilgilər A.Salamzadə, E.Avalov, R.Salayevin birgə yazdıqları kitabda[5], habelə Avalovun monoqrafiyasında[6] yer alıb. Əsərdə Şuşa şəhərinin yaranma tarixi araşdırılır, memarlığın mühüm inkişaf mərhələləri təhlil edilir.

Ş.Cəmşidov İbrahimxəlil xanın Car-Balakənə qaçması barədə tarixşünaslıqda hökm sürən mülahizəni 1974-cü ildə yazdığı məqalədə təkzib edir, müəllif İbrahimxəlil xanın müqavimətin başında dayandığını, Şuşanı Qacarın şəhərə yaxınlaşdığı ərəfədə tərk etmədiyini söyləyir. Qacar toplarının

---

[1] Исмайлов М.А. К вопросу историографии так называемого кочевого скотоводства в Азерб. в XIX – начале XX вв. // Известия АН Азерб. ССР, Серия История, философия и права. 1973, №1. с.20-28. Yenə onun: О характере так называемого кочевого скотоводства в Азербайджане в XIX – начале XX вв. // Известия АН Азерб. ССР, Серия история, философия и права, 1973, №3, с.51-59.

[2] Dəlili H.Ə. Qarabağ xanlığının banisi Pənahəli xan haqqında yeni məlumat // Azərb. SSR EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. 1971, №1, s.47.

[3] Dəlili H.Ə. Urmiya xanlığının tarixi oçerki. T.e.n. dissertasiya işi. AMEA TİEA, fond 1, siy. 1. sax. vah.105 (6371).

[4] Dəlili H.Ə. Azərbaycanın cənub xanlıqları XVIII əsrin ikinci yarısında. Bakı, 1979.

[5] Саламзаде А.В., Авалов Э.В., Салаев Р.Д. Проблемы сохранения и реконструкции исторических городов Азербайджана. Баку, 1979.

[6] Авалов Э. Архитектура города Шуши. Баку, 1977.

qala divarlarında yaratdığı dağıntılara son qoymaq məqsədilə İbrahimxəlil xan 200 suvari ilə Qacarın topxanasına basqın etmək üçün qalanı tərk edir. Topçuları susdurduqdan sonra yolların bağlandığını görüb, çarəsiz Balakənə, Ümmə xanın himayəsinə sığınmalı olur.[1]

G.N.Məmmədova Azərbaycanda fəaliyyət göstərən rus konsullarının məlumatları əsasında yazdığı əsərdə Qarabağ xanlığının tarixi ilə bağlı bir sıra maraqlı faktlar, yeni fikirlər açıqlayır. Dəlilidən sonra məhz G.N.Məmmədova, Məhəmmədhəsən xan Qacarın Qarabağa 1757-ci ildə hücum etdiyini söyləyir, konsul Çekalevskinin 26 sentyabr 1757-ci il tarixli məlumatına əsaslanaraq tarixşünaslıqda hökm sürən fikrin yanlışlığını sübut edir.[2]

Nazim Axundov 1989-cu ildə yazdığı "Qarabağ salnamələri" əsərinin birinci fəslində "Qarabağnamə"lər və onların müəllifləri barədə məlumat verməklə kifayətlənir, "Qarabağnamələr" külliyyatına daxil edilən əsərlərdən əlavə, XX əsrin əvvəllərində Mirzə Xosrov Axundov-Şaiqin "Qarabağ tarixi", Məhəmmədağa Müctəhidzadənin mənzum "Qarabağnamə" əsərlərini yazdığını, bu iki əsərin əvvəlki salnamələri təkrar etdiyini və buna rəğmən onların "Qarabağnamələr" külliyyatına daxil edildiyini[3] söyləyir.

Müəllif İbrahimxəlil xanın mayor Lisaneviç tərəfindən günahsız qətlə yetirildiyini, Vərəndə məliyi Cümşüdün fitnəkarlığının bu işə təkan verdiyini söyləyir, Amerika alimi A.Murelin bu qənaətdə olduğunu yazır.[4]

Mövzu ilə bağlı əsərlər sırasında akademik İ.Əliyevin "Dağlıq Qarabağ: tarix, faktlar, hadisələr" əsəri[5] təqdirəlayiqdir. Azərbaycan tarixşünaslığında ilk dəfə bu əsərdə Qarabağ xanlığının Azərbaycan dövləti olduğu təsbit edilir, ermənilərə aidiyyətinin olmadığı vurğulanır. Dağlıq Qarabağın tarixi keçmişinə qısaca nəzər salan müəllif erməni "tədqiqatçıları"nın uydurmalarına tutarlı faktlarla cavab verir, Qarabağın əzəli Azərbaycan torpağı olduğunu bir daha təsdiqləyir. Əsərdə xanlığın sosial-iqtisadi quruluşu, sosial-siyasi əlaqələri barədə müəyyən məlumatlar izlənilir. Mərhum akademik İ.Əliyev həmçinin 2003-cü ildə nəşr etdiyi "Saxta tarix işğala haqq qazandırmaq cəhdidir" adlı əsərində erməni alimlərinin tarixi faktları saxta-

---

[1] Cəmşidov Ş. İbrahim xan Şuşa qalasını nə üçün tərk etmişdi? // "Azərbaycan gəncləri" qəzeti, 1974.
[2] Мамедова Г. Göstərilən əsəri, s. 83-85.
[3] Axundov N. Qarabağ salnamələri. Bakı, 1989, s.8.
[4] Yenə orada, s.145-146.
[5] Əliyev İ. Dağlıq Qarabağ: tarix, faktlar, hadisələr. Bakı, 1989.

laşdırmaqla bugünkü işğala haqq qazandırmaq cəhdlərinin ifşasına həsr edilmişdir.[1]

M.Gülmalıyevin əsərində[2] Qarabağ xanlığı tarixinin müəyyən aspektləri tədqiq edilir. X.Xəlilov "Qarabağın etnik tarixindən" adlı məqaləsində 1823-ci il Qarabağ əyalətinin kameral təsviri əsasında Qarabağ xanlığında əhalinin sayı, şəhər və kənd əhalisinin etnik tərkibini müəyyənləşdirir.[3]

F.Əliyev XVIII əsrdə Azərbaycanın tarixi coğrafiyasına həsr etdiyi məqaləsində[4] Qarabağ xanlığı barədə qısa məlumat verir, məqaləyə əlavə edilən xəritədə Qarabağ xanlığının sərhədlərini göstərir.

**Dissertasiyanın IV fəsli "Müstəqillik dövrü Azərbaycan tarixşünaslığı probleminə yeni baxış"** adlanır. **"Problemə yeni baxışın formalaşması, Qarabağ xanlığı tarixinin tədqiqində yeni istiqamət" adlanan birinci yarımfəslində** Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdiyi andan tariximizin faktoloji əsaslarla araşdırılmasının zəruriliyi, keçmişdə öyrənilməsi qadağan edilən, təhrif olunan mövzular tədqiqatçıların müşahidəsinə təqdim edilir.

XX əsrin 90-cı illərinin əvvəlində Q.Qeybullayevin "Qarabağ (etnik və siyasi tarixinə dair)" əsəri[5] əsasən Qarabağın antik və ilk orta əsrlər dövrünün etnik-siyasi tarixinə həsr edilib, müəllif həmçinin xanlıqlar dövründə Qarabağ əhalisinin etnik tərkibinin tədqiqinə geniş yer ayırıb, əhalinin mütləq əksəriyyətinin türklərdən ibarət olduğunu sübut edib. Bununla yanaşı, tədqiqatçı Qarabağın inzibati ərazi vahidinin etimologiyasını təhlil edib, onların başdan-başa türk mənşəli olduğunu vurğulayıb.

Q.Qeybullayev azərbaycanlıların etnogenezinə həsr etdiyi digər əsərində[6] haqlı olaraq türklərin Qarabağın avtoxton sakinləri olduqlarını, Qarabağ türklərinin azərbaycanlıların etnogenezində mühüm rol oynadıqlarını göstərir.

1994-cü ildə akademik Z.Bünyadov və Y.Yusifovun redaktəsi ilə

---

[1] Алиев И. Лжеистория: – очередная попытка оправдать агрессию. Баку, 2003.
[2] Gülmalıyev M. XVIII əsrin son rübü – XIX əsrin I yarısında Azərbaycan kəndinin sosial-iqtisadi strukturu. Bakı, 1989.
[3] Xəlilov X. Qarabağın etnik tarixindən // Azərbaycan SSR EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1988, №3.
[4] Алиев Ф.М. Азербайджан в XVIII веке // Историческая география Азербайджана. Баку, 1987, с.129-139.
[5] Qeybullayev Q. Qarabağ (etnik və siyasi tarixinə dair). Bakı, 1990.
[6] Гейбуллаев Г. К этногенезу азербайджанцев. Баку. 1991.

müəlliflər kollektivi tərəfindən hazırlanan "Azərbaycan tarixi"nin[1] nəşri o zaman üçün mühüm hadisə idi. Əsərin XIV fəsli Azərbaycan xanlıqlarına, fəslin ikinci bölməsi Qarabağ xanlığına həsr edilib. Bu fəslin müəllifi S.Məmmədov əvvəlcə "Qarabağnamələr" əsasında xanlığın yaranması, "Bayat müharibəsi" haqqında qısa məlumat verir. O, H.Abdullayevin yazdığı kimi Qarabağ xanlığının yaranma prosesini digər xanlıqların yaranma tarixindən fərqli, əsas etibarı ilə üç istiqamətdə getdiyini söyləyir: "Qarabağda ayrı-ayrı feodal hakimlərin siyasi müstəqilliyini ləğv etməklə xanlıq hakimiyyətini bərqərar etmək, xanlığın hərbi-siyasi mərkəzini yaradıb möhkəmləndirmək, xan hakimiyyətini qonşu feodal dairələrə yaymaq".[2]

Şuşa şəhərinin salınma tarixini şərh edən müəllif qeyd edir ki, XV əsr erməni xatirə yazılarının məlumatına istinadən bu qalanın hələ üç əsr əvvəl, 1428-ci ildə türksoylu tayfalar tərəfindən inşa, Pənahəli xan tərəfindən bərpa edilib, möhkəmləndirildiyi, abadlaşdırıldığını yazır.[3]

İ.H.Əliyevin rəhbərliyi ilə 1995-ci ildə Azərbaycan EA Tarix İnstitutu tərəfindən hazırlanan, "Azərbaycan tarixi" nəşr edilib.[4] Əsərdə Qarabağ xanlığının Qacar ordusuna qarşı müqaviməti ətraflı araşdırılır.

1996-cı ildə S.Əliyarlının redaktəsi ilə daha əhatəli, həm də ilk dəfə latın qrafikasında "Azərbaycan tarixi" nəşr edilib.[5] Xanlıqlar dövrünü əhatə edən fəsildə Qarabağ xanlığı haqqında ümumiləşdirilmiş məlumat verilir.

2002-ci ildə S.A.Məmmədovun "Azərbaycan tarixi (XV-XIX əsrin birinci otuz illiyində)" dərsliyi nəşr edilib. Dərslikdə Qarabağ xanlığına həsr edilən hissə 1994-cü ildə nəşr olunan Azərbaycan tarixinin müvafiq bölməsi ilə eynidir, Şuşa şəhərinin XVIII əsrdən əvvəl salınması fikri irəli sürülür. Müəllif yazır ki, A.Bakıxanov bu fikri təsdiq edərək ("Gülüstani-İrəm" də belə bir qeyd yoxdur – Z.H.) yazıb: "Şuşa Azərbaycanın Təbriz kimi qədim şəhərlərindən biridir. Onun ilk adı nə Pənahabad, nə də Şuşa deyil, Novruz olub".[6]

---

[1] Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). Z.Bunyadov və Y.Yusifovun redaktəsilə. I cild, ali məktəblər üçün dərslik. Bakı, 1994.
[2] Yenə orada, s.532.
[3] Yenə orada.
[4] Azərbaycan tarixi (İ.Əliyevin redaktəsilə). Bakı, 1995.
[5] Azərbaycan tarixi (uzaq keçmişdən 1870-ci illərə qədər). S.Əliyarlının redaktəsilə. Bakı, 1996.
[6] Məmmədov S. Azərbaycan tarixi (XV-XIX əsrin birinci otuzilliyi). Dərslik. Bakı, 2002, s.202, sətiraltı qeyd.

2000-ci ildə Y.Ağamalı "Qarabağ xanlığının qonşu xanlıqlar və digər dövlətlərlə münasibətləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edib, kitab və məqalələr[1] nəşr etdirib. Sözügedən əsərin mənbə bazası geniş deyil, çap olunan tədqiqatların hamısından istifadə edilməyib.[2]

Azərbaycan Milli Elmlər Akademiyası A.Bakıxanov adına Tarix İnstitutunun hazırladığı "Azərbaycan tarixi"nin üçüncü cildində Qarabağ xanlığına həsr olunan kiçik bölmə var.[3]

2004-cü ildə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunda hazırlanan "Qarabağ" məqalələr toplusu nəşr edilib.[4] Görkəmli tarixçi, arxeoloq-etnoqraf alimlərin məqalələrindən ibarət toplu nəfis tərtibatı ilə yanaşı, yüksək elmi səviyyəsi ilə seçilir. Məqalələrdə xronoloji ardıcıllıqla Qarabağın dünəni, bu günü təsvir, ermənilərin əsassız torpaq iddiaları təkzib edilir.

2005-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunda "Qarabağ: Kürəkçay müqaviləsi – 200" adlı məqalələr toplusu nəşr edilib.[5] O.Ə.Əfəndiyevin, F.C.Məmmədovanın və G. H.Məmmədovanın məqalələrində Qarabağ məliklərinin mənşəyi, T.Mustafazadənin "Qarabağ xanlığının Azərbaycan tarixində yeri", Z.Ə.Hacıyevanın "Qarabağ xanlığının inzibati bölgüsü və dini-etnik tərkibi" haqqında məqalələrdə çox maraqlı faktlar açıqlanır, C.Mustafayev Şuşa şəhərinin tarixi, H.Həsənov və V.Umudlunun, K.R.Şükürovun məqalələrində isə Kürəkçay müqavilələri geniş tədqiq edilir.

Akademiyanın müxbir-üzvü Fəridə Məmmədovanın "Qafqaz Albaniyası və albanlar" əsəri tarixi həqiqətlərin saxtalaşdırılmasından və bu gün də davam edən Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktına tarixi və hüquqi haqq qazandırılmasına yönələn açq-aydın cəhddən başqa bir şey deyil.[6]

İsrafil Məmmədovun əsərləri XVIII-XX əsrlər İrəvan xanlığının siya-

---

[1] Ağamalı Y. Qarabağ xanlığının qonşu xanlıqlar və digər dövlətlərlə münasibətləri. t.e.n. dissertasiyası. Bakı, 2002. Yenə onun: Qarabağ xanlığı. XVII əsrin sonu – XIX əsrin əvvəllərində // Tarix və onun problemləri. Elm, 2002, №1, s.45-48. Yenə onun: Qarabağ xanlığında sənətkarlıq və ticarət // Dirçəliş-XXI əsr, 2003, №10, s.173-178.

[2] Ağamalı Y. Qarabağ xanlığının qonşu xanlıqlar və dövlətlərlə münasibətləri. Bakı, 1998.

[3] Azərbaycan tarixi (7 clddə). III c. (XIII-XVIII əsrlər). Bakı, 1999, s.436.

[4] Карабах. Баку, 2004.

[5] Карабах. Кюрекчайский договор – 200. Баку, 2005.

[6] Мамедова Ф. Кавказская Албания и албаны, Баку, 2005.

si, sosial-iqtisadi həyatını əks etdirən faktiki materiallar və arxiv sənədləri ilə zəngindir, xüsusilə XVIII-XX əsrlərdə buranın yerli əhalisi azərbaycanlıların başına gətirilən müsibətlərin tarixi xronoloji ardıcıllıqla izlənilir.[1]

Z.Ə.Hacıyeva Qarabağ xanlığında sosial-iqtisadi münasibətlər və dövlət quruluşu məsələləri adlı monoqrafiyanı[2] oxuculara Azərbaycan, rus və ingilis dillərində təqdim edib.

2007-ci ildə Y.Hüseynovun "Qarabağnamələr Azərbaycan tarixini öyrənmək üçün mənbə kimi" kitabı çapdan çıxıb.[3] Müəllif Qarabağ xanlığının sosal-iqtisadi və siyasi tarixini tədqiq edib, lakin nədənsə arxiv mənbələrindən lazımınca istifadə etməyib.

F.Abasovun "Qarabağ xanlığı"[4] kitabı 2007-ci ildə işıq üzü görüb. Bu günədək xanlığın tarixi haqqında ümumiləşdirilmiş əsərlərin olmadığını qeyd edən müəllifin şərh etdiyi üslubun və müqayisələrin maraqlı olduğunu, bir sıra qiymətli bilgilər irəli sürdüyünü qeyd etməmək mümkün deyil. Bununla yanaşı, əsərdə ciddi qüsurlar izlənilir, bir sıra problemlər tədqiq edilmir, ya da zəif əhatə olunur. F.Abasovun əsəri siyasi-ideoloji, publisistik və elmi-kütləvi səciyyə daşıyır.

Q.Mustafayev 2008-ci ildə "Qarabağ və Gəncə xanlıqları əhalisinin tarixi-demoqrafik tədqiqi" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. Dissertant Qarabağ və Gəncə xanlıqlarında demoqrafik prosesləri kompleks araşdırıb, Qarabağ xanlığı əhalisinin say dinamikasını, etnik, sosial-silki tərkibini müəyyənləşdirib. Q.Mustafayev erməni tarixçilərinin Qarabağ xanlığı əhalisinin etnik tərkibi ilə bağlı mülahizələrinin əsassızlığını tarixi faktlara söykənən bilgilərlə təkzib edir, 1823-cü ildə ləğv olunan Qarabağ xanlığının ərazisində keçirilən kameral sayıma əsasən 18.769 alilənin 14.241-nin türk, 4.528-nin xristian olduğunu açıqlayır.[5]

S.Həsənov 2010-cu ildə "Mir Mehdi Xəzaninin "Kitabi-tarixi-Qarabağ" əsəri Azərbaycan tarixinin mənbəyi kimi" adlı dissertasiya müdafiə

---

[1] Məmmədov İ.S. İrəvan dəftəri I, II, III. Bakı, 2004-2008; yenə onun. Трилогия панарменизма. I. Баку, 2007; yenə onun. Erməni kilsəsi və türk Azərbaycan torpaqlarında dolaşmaqda olan "Böyük Ermənistan" kabusu. Bakı, 2010.

[2] Hacıyeva Z. Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu. Bakı, 2007.

[3] Hüseynov Y. "Qarabağnamələr" Azərbaycan tarixini öyrənmək üçün mənbə kimi. Bakı, 2007.

[4] Абасов Ф. Карабахское ханство. Баку, 2007.

[5] Mustafayev Q. Qarabağ və Gəncə xanlıqları əhalisinin tarixi-demoqrafik tədqiqi. NDA, Bakı, 2008, s.20.

edib.[1] Mir Mehdi Xəzaninin məlum əsəri tarixşüaslığa ilk dəfə müstəqil tədqiqat əsəri kimi cəlb edilib.[2]

T.T.Mustafazadə 2010-cu ildə yazdığı "Qarabağ xanlığı" əsərində Qarabağ xanlığı tarixini kompleks araşdırıb, müəyyən yeni tarixi faktlar açıqlamağa müəssər olub.

Müstəqillik illərində yazılan əsərlərdə Qarabağ xanlığının tarixi tədqiq edilir. M.İsmayılovla M.Bağırovanın[3], F.M.Əliyevlə M.Əliyevin[4], F.M.Əliyevlə U.Həsənovun[5], M.İsgəndərovanın[6], E.Babayevin[7], İ.Məmmədovanın,[8] R.Rəhimovun,[9] V.Umudlunun,[10] T.Mustafazadənin,[11] H.Sadıqovun,[12] G.Nəcəflinin,[13] əsərlərində tədqiq etdiyimiz mövzuya müraciət edilib. N.Mustafayevanın əsərində[14] Qarabağ xanlığı və cənub xanlıgları arasında münasibətlər, F.Ağamalının,[15] C.M.Mustafayevin[16] əsərlərində xanlıqlar

---

[1] Həsənov S. Mir Mehdi Xəzaninin "Kitabi-tarixi-Qarabağ" əsəri Azərbaycan tarixi öyrənmək üçün mənbə kimi. T.e. ü f. d. elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın aftoreferatı. Bakı, 2010.

[2] Yenə orada, s.12.

[3] İsmayıl M., Bağırova M. Şəki xanlığı. Bakı, 1995.

[4] Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı, 1996.

[5] Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı, 1997.

[6] Искендерова М. Бакинское ханство. Баку, 1999.

[7] Бабаев Э. Из истории Гянджинского ханства. Баку, 2003.

[8] Məmmədova İ. Lənkəran xanlığı birinci Rusiya-İran müharibələri dövründə. Bakı, 2007.

[9] Рагимов Р. Из истории отношений между азербайжанскими ханствами и Россией во второй половине XVIII – начале XIX вв. Баку, 1997.

[10] Umudlu V. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). Bakı, 2004.

[11] Mustafazadə T. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı, 2002.

[12] Sadıqov H. Rusiya-Türkiyə münasibətlərində Cənubi Qafqaz problemi. Bakı, 1993.

[13] Nəcəfli G. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı, 2007, s.97-98, 122-124, 141-147 və s.səhifələr.

[14] Mustafayeva N. Cənubi Azərbaycan xanlıqları. Bakı, 1995.

[15] Ağamalı F. XVIII əsrin ikinci yarısı-XIX əsrin əvvəllərində Quzey Azərbaycan xanlıqlarının sosial-iqtisadi vəziyyəti. Bakı, 1999, 304 s.

[16] Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıqdan toplanan vergilər haqqında // Azərb. SSR EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1994, № 14, s.48-58.

dövründə sosial-iqtisadi münasibətlər və sənətkarlığın vəziyyəti kontekstində Qarabağ xanlığında sosial-iqtisadi durum araşdırılır. C.M.Mustafayev həmçinin, Şuşa şəhərinin salınma tarixi barədə maraqlı və əsaslandırılmış mülahizələr təqdim edir.[1] M.Abdullayev xanlıqlar və rus müstəmləkəçiliyi dövründə (XIX əsrin 40-ci illərinə qədər) Şimali Azərbaycanda aqrar münasibətləri tədqiq edir.[2]

Müstəqillik illərində Azərbaycanda Qarabağın xanlıq tarixinin öyrənilməsinə önəm verilib, müəlliflər çoxsaylı qərəzli sovet ehkamlarından, yalançı beynəlmiləlçilikdən uzaqlaşıb, sovet dövründə təhrifə məruz qalan məsələləri olduğu kimi obyektiv araşdırılıb, oxuculara bəlli olmayan çoxsaylı yeni faktlarla, məlumatlarla tarixşünaslığı zənginləşdiriblər, başlıcası erməni və bəzi ermənipərəst tarixçilərin Qarabağın dağlıq hissəsinin tarixən Ermənistana məxsus olması barədə sayıqlamalarını ifşa ediblər.

**Tədqiqatın IV fəslinin "İrəvan xanlığı tarixinin Azərbaycan tarixşünaslığında tədqiqi" adlanan ikinci yarımfəslində** bildirilir ki, İrəvan xanlığı Rusiya tərəfindən işğal edildikdən sonra ərazisinə çoxsaylı erməni köçkünləri yerləşdirildi, bu ərazi heç zaman mövcud olmayan xəyali "Şərqi Ermənistan"ının bir hissəsi kimi qələmə verildi. Azərbaycan tarixçiləri uzun müddət bu saxta elmi-siyasi izahla barışmağa məcbur olaraq, İrəvan xanlığı tarixini demək olar ki, tədqiq etməyiblər, əksinə, təhriflərə belə öz münasibətlərini bildirməkdən belə çəkiniblər. Bununla belə Sovet dövründə bəzi Azərbaycan tarixçiləri İrəvan xanlığı tarixinə müraciət edərək, həmin dövrü olduğu kimi tədqiq və təqdim etməyə çalışıblar.

Konkret olaraq XX əsrin 20-ci illərinin birinci yarısında dərc edilən əsərlərdə İrəvan xanlığı haqqında obyektiv məlumatlara rast gəlirik. M.Vəlilinin (Baharlı),[3] R.İsmayılovun,[4] C.Zeynaloğlunun[5] əsərlərində İrəvan xanlığının Azərbaycan xanlığı olduğu açıqlanır. Bu əsərlər Sovet İttifaqının çökməsindən sonra təkrar nəşr edilib.

---

[1] Mustafayev C. Şuşa şəhərinin əsasının qoyulması tarixi haqqında bəzi mülahizələr // Tarix və onun problemləri. 1998, № 1 (3), s.57-61.

[2] Abdullayev M. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-ci illərinə qədər). Bakı, 2005.

[3] Vəlili M. (Baharlı). Azərbaycan: coğrafi-təbii etnoqrafik və iqtisadi mülahizatlar (təkrar nəşr). Bakı, Azərnəşr, 1993.

[4] İsmayılov R. Azərbaycan tarixi (təkrar nəşr). Bakı, Azərnəşr, 1993.

[5] Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi (elmi-publisistik və tarixi kitab). Bakı, 1992.

30-cu illərdə inzibati amirlik sisteminin tarixşünaslığa sirayət etməsi nəticəsində İrəvan xanlığı tarixinin tədqiqatlardan kənarda qalması, Azərbaycanın bu qədim ərazisinin erməni "elmi icması"na güzəşt edilməsini müşahidə edirik.

Cənubi Azərbaycan xanlıqları üzrə mütəxəssis H.Ə.Dəlilinin əsərində[1] İrəvan xanlığının Urmiya, Xoy xanlıqları ilə siyasi münasibətlərinə müraciət edilib, xanlığın coğrafi mövqeyi Ermənistan ərazisinə daxil edilib.

Azərbaycan Sovet Ensiklopediyasına İrəvan xanlığı haqqında daxil edilən bilgilər ziddiyyətliliyi ilə fərqlənir. Müəllif İrəvan xanlığının Azərbaycan ərazisində yarandığını söyləməyə cəsarət etmir, xanlığın Cənubi Qafqazda yarandığını, "erməni torpağı olduğu"nu, ermənilərin bölücülük hərəkatını azadlıq uğrunda mübarizə kimi qələmə verir.[2]

M.Ə.İsmayılovla F.M.Əliyevin 1992-ci ildə birgə yazdıqları "İrəvan xanlığı" məqaləsində ilk dəfə İrəvan xanlığının Azərbaycana məxsusluğu təsdiqləndi, ərazisi, əhalisi haqqında məlumat verildi, idarəçilik sistemi, sosial-iqtisadi münasibətləri və s. üzrə bilgilər açıqlandı.[3]

1996-cı ildə nəşr edilən "Azərbaycan tarixi" dərsliyində şimalda yaranan Azərbaycan xanlıqları sırasında İrəvan xanlığının adı çəkilir, habelə 1827-ci ildə rus hərbçilərinin qalaya hücumu zamanı ciddi müqavimətlə üzləşdiyi, xanlıq ərazisində əsasən azərbaycanlıların yaşadığı vurğulanır.[4]

1997-ci ildə F.M.Əliyevlə U.Həsənovun "İrəvan xanlığı" əsəri tarixçilərin bu bölgəyə həsr etdikləri ilk ayrıca tədqiqat əsəridir. Müəlliflər qədim Azərbaycan ərazilərini əhatə edən İrəvan xanlığı tarixinin siyasi-iqtisadi tədqiqatdan kənarda qaldığını qeyd edir, İrəvan xanlığının müstəqil dövlət qurumuna qədərki, habelə mövcud olduğu dövrdə siyasi tarixi, ictimai-iqtisadi vəziyyətinə önəm verirlər.[5] Əsərdə İrəvan xanlığının ictimai-iqtisadi vəziyyəti tədqiq edilir, xanlığın paytaxtının İrəvan şəhəri və 15 mahaldan ibarət olduğu açıqlanır.[6]Müəlliflər xanlıqda mövcud olan əsas torpaq mülkiyyəti formalarının (divani, xalisə, mülk, vəqf, camaat torpaqları və s.),

[1] Dəlili H.Ə. Azərbaycanın cənub xanlıqları (XVIII əsrin ikinci yarısında). Bakı, Elm, 1979.
[2] Erivan xanlığı // Azərbaycan Sovet Ensiklopediyası. IV c. Bakı, 1980, s.79-80.
[3] İsmayılov M., Əliyev F. İrəvan xanlığı, s.69.
[4] Azərbaycan tarixi (uzaq keçmişdən 1870-ci illərə qədər). S.Əliyarlının redaktəsilə. Bakı, 1996, s.511-616.
[5] Əliyev F., Həsənov U. İrəvan xanlığı, s.3.
[6] Yenə orada, s.27.

vəqf torpaqlarının digər xanlıqlardan fərqləndiyini, xristian kilsələrin böyük torpaq ərazilərinə malik olduğunu (bu sahələrin əksəriyyətini kilsəyə xanlar bağışlayıb) bildirirlər. "Dünya ermənilərinin dini mərkəzi Eçmiədzin monastırı isə dövlət daxilində dövlətə çevrilir".[1]

Əsərin sonunda II rus-İran müharibəsi dövründə İrəvan xanlığının rus işğalçılarına qarşı fədakar müqaviməti, rus qoşunlarının ikinci hücumu zamanı qalanı ələ keçirməsi barədə qısa məlumat verilir. Müəlliflər İrəvan xanlığı ərazisində qanlı döyüşlərin getdiyi bir vaxtda xanlıqda yaşayan ermənilərin düşmənə göstərdiyi xəyanətkar köməyi – rus ordusunu canlı qüvvə, ərzaq və silah-sursatla təmin etməsini qeyd edirlər.[2]

F.M.Əliyevlə U.Həsənovun əsərində diqqətdən kənarda qalan hadisələr M.Süleymanovun 1997-ci ildə çap etdiyi "İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən" adlı əsərində tədqiq edilir, İrəvan xanlığının rus işğalına qarşı apardığı müqavimət daha əhatəli şərh edilir. Müəllif İrəvan xanlığında mövcud qoşunların tərkibi, silahlanma üsulları, döyüş taktikası barədə müəyyən bilgilər verir. İrəvan xanlığının cəbbəxanasında topların, müxtəlif artilleriya qurğularının olduğunu qeyd edən müəllif, İrəvan qalasında silah və barıt zavodlarının fəaliyyət göstərdiyini, bu topların çoxunun İrəvanın özündə düzəldildiyini güman edir.[3] Xan ordusunun döyüş taktikası onun özü tərəfindən seçilirdi.[4]

Əsərdə XIX əsrin əvvəllərində Hüseynqulu xanın dövründə inşa edilən Sərdərabad qalası barədə, rus qoşunlarının İrəvana hücumu ilə bağlı təsvirlərdə rast gəlirik. Müəllif qeyd edir ki, 1804-cü ildə rus qoşunlarının İrəvan ətrafında uğursuzluğu Fətəli şahı ruhlandırdı və o, 1805-ci ilin yayında Cənubi Qafqaza yeni yürüş təşkil etdi, Məhəmməd xanın müstəqil xarici siyasət yürütməsindən narazı olduğu üçün onu Kəlbəli xanla birgə həbs etdi.[5] M.Süleymanov rusların xanlığa ikinci yürüşünü, biabırcasına məğlub olub geri çəkilməsini ətraflı təsvir edir.[6] Müəllif rus hökumətinin İrəvan xanlığının zəbt edilməsinə xüsusi önəm verdiyini açıqlayır, rus qoşunlarının baş komandanı, general Yermolovun İrəvanı almaq üçün xüsusi plan hazırladı-

[1] Əliyev F., Həsənov U., Göstərilən əsər, s. 27-28.
[2] Yenə orada, s.113.
[3] Süleymanov M. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi tarixindən. Bakı, 1997, s.22.
[4] Yenə orada, s.23.
[5] Yenə orada, s.91.
[6] Yenə orada.

ğını və həmin planın cüzi əlavələrlə I Nikolay tərəfindən təsdiq edildiyini açıqlayır.[1]

V.Umudlunun 2004-cü ildə yazdığı "Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı" əsərində[2] İrəvan xanlığı barədə müəyyən bilgilər oxucunun diqqətinə çatdırılır. Müəllif çar Rusiyasının İrəvan xanlığının işğalına verdiyi əhəmiyyətin çox böyük olduğunu söyləyir, özündən əvvəl yazılan məlumatları sadəcə təkrar edir.[3]

Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə (XIX əsrin 40-cı illərinə qədər) Şimali Azərbaycanda aqrar münasibətlərə həsr etdiyi əsərində M.Abdullayev digər xanlıqlarla yanaşı, İrəvan xanlığında mövcud aqrar münasibətləri nəzərdən keçirib.[4]

Əziz Ələkbərli on cilddən ibarət "Qərbi Azərbaycan" əsərinin[5] 2000-2002-ci illərdə nəşr edilən I–II cildlərində Vedibasar, Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları haqqında məlumat verir, bu mahalların tarixinə edilən ekskurslarda xanlıq dövründə mövcud vəziyyəti təhlil edir.

G.Nəcəflinin 2007-ci ildə yazdığı "XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri" kitabında XVIII əsrin 60-70-ci illərində yaranan gərgin beynəlxalq şəraitdən yararlanmağa çalışan həm Rusiya hakim dairələri, həm erməni diasporunun Azərbaycan xanlıqları ilə Osmanlı torpaqları hesabına erməni dövləti yaratmaq cəhdlərinə şərh verilir.[6] Əsərdə Hindistanın Mədrəs şəhərində yaşayan erməni ideoloqu Ş.Şaamiryanın erməni dövlətinin yaranması layihəsi barəsində ətraflı məlumat verilir.[7]

Türkmənçay müqaviləsinin 180 illiyinə həsr edilən məqalələr toplusunda İrəvan xanlığının tarixi müzakirə edilir.[8]

AMEA Bakıxanov adına Tarix İnstitutunda 2005-ci ildə "Qarabağ: real tarix, faktlar, sənədlər"[9] əsəri nəşr olundu və burada Qarabağın siyasi, sosial-

---

[1] Süleymanov M. Göstərilən əsəri, s. 129.
[2] Umudlu V. Göstərilən əsəri.
[3] Yenə orada, s.45-46.
[4] Abdullayev M. Göstərilən əsəri, s. 35.
[5] Ələkbərli Ə. Qərbi Azərbaycan. Vedibasar mahalı. I-II cild. Bakı, 2000.
[6] Nəcəfli G. Göstərilən əsəri, s. 109.
[7] Yenə orada, s.142.
[8] Həsənov H. Türkmənçay: ədalətsiz müqaviləyə aparan yollar, onun məğzi və faciəli nəticələri. Türkmənçay – 180 (məqalələr toplusu). Bakı, 2009
[9] Mahmudov Y., Şükürov K. "Qarabağ: real tarix, faktlar, sənədlər" (Azərbaycan və ingilis dillərində) Bakı, 2005.

iqtisadı, mədəniyyət və o cümlədən, onun çar Rusiyası tərəfindən işğalı məsələləri təkzibedilməz faktıkı materiallar, arxiv sənədləri əsasında tədqiq edilmişdir. Azərbaycan milli tarixşünaslığında ilk dəfə olaraq problemin tədqiqinə yeni arxiv sənədləri və faktiki materiallar cəlb edilmiş, əsərdə regionun siyasi, sosial-iqtisadi tarixi ilə yanaşı, onun əhali tarixi məsələləri çar Rusiyasının ermənilәri buraya köçürmə siyasəti və digər aktual məsələlər tədqiq edilmişdir.

AMEA-nın müxbir üzvü Y.M.Mahmudovun rəhbərliyi ilə Azərbaycan tarixşünaslığı üçün çox mühüm olan digər bir problem İrəvan xanlığının tarixinə həsr edilən sanballı bir əsər[1] ictimaiyyətə təqdim edildi. Azərbaycan tarixşünaslığının mühüm nailiyyətlərindən hesab edilən bu əsərdə təkzibedilməz ilk mənbələr əsasında İrəvan xanlığı ərazisinin Azərbaycanın tərkib hissəsi olması sübuta yetirilir, xanlıq əhalisinin etnik tərkibi araşdırılaraq onların əksəriyyətinin Azərbaycan türklərindən ibarət olduğu isbat edilir. Kitabda İrəvan xanlığının sosial-iqtisadi həyatı, sərhədləri, inzibati bölgüsü, daxili idarəçilik sistemi, qonşu dövlətlər və xanlıqlarla münasibətləri, xanlığın XIX əsrin əvvəllərində yadelli işğalçılara qarşı mübarizəsi, Rusiya dövləti tərəfindən işğalı, ən başlıcası, işğal olunmuş İrəvan xanlığı ərazisinə İran və Osmanlı dövlətlərindən ermənilərin köçürülməsi məsələləri tədqiq edilir.

Erməni katolikosluğu mərkəzinin 1441-ci ildə İrəvan bölgəsinə köçürülməsinə qədər burada ermənilərə məxsus heç bir kənd, yaxud torpaq sahəsinin olmadığını, katolikosluğun yerləşdiyi Üçkilsə (Valarşabad) kəndinin belə 1441-cü ildən başlayaraq ermənilər tərəfindən müxtəlif vasitələrlə Azərbaycan türklərindən alındığı qeyd edilir.[2]

İrəvan xanlığının yaranma tarixi təhlil edilərkən ilk xanın Mehdi xan olduğu vurğulanır, bu xanlığın keçmiş Çuxursəd bəylərbəyliyinin bütün ərazisini əhatə etmədiyi və bu ərazidə həmçinin Naxçıvanla Maku xanlıqlarının yarandığı açıqlanır.[3]İ.Şopenin və digərlərin məlumatları əsasında hesablama aparan müəlliflər Rusiya işğalı ərəfəsində bu diyarda türk-müsəlman əhalinin sayının 107.750 nəfər olduğunu təsdiq edirlər. İlk mənbələrlə tanışlıq İrəvan şəhərində yaşayan əhalinin bütünlüklə Azərbaycan türklərindən ibarət olduğunu təsdiqləyir. Həmçinin, ermənilərin müxtəlif yollarla Azərbaycan türklərinə məxsus əraziləri ələ keçirməsini əks etdirən çoxsaylı

---

[1] İrəvan xanlığı (Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi). Bakı, 2009.
[2] Yenə orada, s. 18-19.
[3] Yenə orada, s.51.

sənədlərin verilməsi kitabın dəyərini artırır. XVIII əsrin ikinci yarısında İrəvan xanlığı ərazisində qeydə alınan toponimlərin siyahısı verilir, onların Azərbaycan türklərinə mənsubluğu təsdiqlənir.

Xanlıqda mövcud olan təhsil sistemi tədqiq edilir, epiqrafik abidələr haqqında məlumatlar verilir, ərazidə, xüsusən İrəvan şəhərində yüzlərlə memarlıq abidəsinin mövcud olduğu, xalq-dekorativ sənətinin geniş yayıldığı izlənilir.[1] Sərdar Sarayı (Xan Sarayı) haqqında ilk mənbələr əsasında verilən əhatəli bilgilər çox dəyərlidir. Ziyarətgahlar, qəbirüstü abidələr, müqəddəs ocaqlar barədə verilən bilgilər dəyərli və əhəmiyyətlidir.

"Xarici siyasət" adlanan fəsildə İrəvan xanlığının mürəkkəb tarixi şəraitdə öz müstəqilliyini qoruyub saxlamaq naminə apardığı mübarizə haqqında məlumatlar yer alır, xanlığın xarici siyasətinin üç mərhələyə bölündüyü açıqlanır və ayrıca tədqiq edilir:

-1747-1783-cü illər – Georgiyevsk müqaviləsinin bağlanmasına qədərki dövr;

- Georgiyevsk müqaviləsinin bağlanmasından – XVIII əsrin sonlarına qədərki dövr;

- XIX əsrin başlanğıcından – xanlığın Rusiya tərəfindən işğalına qədərki dövr;[2]

Dissertasiyanın **"Qarabağ və İrəvan xanliqları tarixinin erməni yazıçıları və tarixçiləri tərəfindən saxtalaşdırılması" adlanan V fəsli iki yarımfəsildən ibarətdir. I yarımfəsildə** Qarabağ xanlığı tarixinin erməni yazarları və tarixçiləri tərəfindən saxtalaşdırılması araşdırılır. İlk növbədə XIX əsrdə yaşayan erməni yazarı Raffinin cızma-qarasının xronoloji çərçivəsi 1600-1827-ci illəri əhatə edən, ermənilər tərəfindən dəfələrlə çap edilən "Xəmsə məlikləri"[3] adlı cəfəng yazısına müraciət edilir, birinci bölmədə Qarabağın "Ermənistan"a məxsus olması barədə cəfəng fikirlər səslənir, məlikliklər haqqında qısa məlumat verilir.

Əsərdə Səfəvi dövlətinin süqutundan istifadə edən məliklərin müstəqil dövlət yaratmaq xülyaları açıqlanır, onların siyahısı verilir.[4]

Raffi Pənahəli xanla İbrahimxəlil xan haqqında yanlış fikirlər söyləyir,

---

[1] İrəvan xanlığı (Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi), s.191.

[2] Yenə orada, s.251.

[3] Улубабян Б. Раффи и его "Меликства Хамсы"; Раффи. Меликства Хамсы. Ереван, 1991, с.7.

[4] Yenə orada, s.17.

Rusiyada ermənilərinin arxiyepiskopu İ.Arqutinskinin, erməni varlıları İ.Eminin, İ.Lazarevin Qarabağ ərazisi hesabına erməni dövləti yaratmaq cəhdləri, onların Rusiya və Kartli-Kaxetiya çarlığı ilə gizli əlaqələri haqqında məlumat izlənilir.[1]

Raffi V.Zubovun yürüşünü ruh yüksəkliyi ilə qeyd edir, rus qoşunlarının geri dönməsindən təəssüfləndiyini gizlətmir, Dərbənd və Qubanın süqutunda ermənilərin xəyanətkar rolunu fəxarət hissi ilə açıqlayır,[2] kilsədaxili münasibətlərdən söhbət açır.

A.Arakelyanın 1939-cu ildə "Qarabağın çar Rusiyasına birləşdirilməsi" adlı məqaləsində[3] İran və Türkiyə zülmkarlarının əsarətindən qurtulmaq üçün Qarabağın beş məliyinin Rusiya himayəsini qəbul etmələri, öz növbəsində Rusiyanın, Qarabağın dağlıq hissəsində möhkəmlənib, Türkiyəyə və İrana qarşı etibarlı forpost yaratmaq istədiyi açıqlanır.

1947-ci ildə A.İoannisyanın nəşrə hazırladığı "Rusiya və erməni xalqının azadlıq hərəkatı"[4] əsəri əslində, Rusiya başda olmaqla, Azərbaycanın Qarabağ və İrəvan xanlıqlarının ərazilərində erməni dövləti yaratmaq üçün göstərilən mücadilələrdən bəhs edir. Müəllif Rusiyada yaşayan erməni varlısı İ.Lazarev, ermənilərin arxiyepiskopu İ.Arqutinski, Hindistanda yaşayan varlı erməni Ş.Şaamiryanın bu məqsədlərə çatmaq fəaliyyətlərini oxuculara təqdim edir. Burada rus sərkərdəsi Suvorovun Azərbaycan əraziləri olan Qarabağ və İrəvan xanlıqları barədə topladığı məlumatlar yer alıb.

Erməni mənşəli Amerika tarixçisi, erməni tarixi üzrə bir çox əsərlərin müəllifi C.Burnutyan 1994-cü ildə Mirzə Camal Cavanşirin "Qarabağ tarixi" əsərini ingilis dilinə tərcümə edib.[5] Qeyd edək ki, N.Gözəlova Burnutyanın etdiyi tərcümənin yaxşı səviyyədə olduğunu, tərcüməçinin qərəzli şərh və qeydləri sayəsində əsərin əhəmiyyətinin aşağı səviyyəyə düşdüyünü qeyd edir.[6]

---

[1] Raffi. Göstərilən əsəri, s. 50-51.

[2] Yenə orada, s.67.

[3] Аракелян А. Карабах. Присоединение Карабаха к царской России // Исторический журнал, 1939 г., №10, с.52.

[4] Иоаннисян А.П. Россия и армянское освободительное движение. Ереван, 1947.

[5] Bournoutian G.A. A History of Qarabagh: an annotated translation of Mirza Jamal Javanshir Qarabaghi`s Tarikh-e Qarabagh. USA, California1994.

[6] Гезалова Н. О переводе «Истории Карабаха» Мирзы Джамала Джаваншира Карабахского на английский язык Д.Борнотьяном // Азербайджан и азербайджанцы, 2000, с.146-149.

C.Burnutyan hələ 1980-cı ilin aprelində Kolumbiya Universitetində "1826-1832-ci illərdə Rusiyaya birləşdirilən İran Ermənistanının əhalisi" adlı məruzə ilə çıxış edib. Məruzədə xüsusi məqsədlər güdən yanlış mülahizələri "İran Ermənistanı" adlandırdığı İrəvan və Naxçıvan xanlıqları ərazisində Rusiya işğalına qədər erməni əhalinin çox cüzi – 20% olduğunu etiraf etməyə məcbur olan, eyni zamanda, heç bir mənbəyə əsaslanmadan uzaq keçmişdə həmin ərazilərdə ermənilərin sayca üstün olduğunu, Səfəvi şahlarının köçürmə siyasəti nəticəsində azaldığını iddia edir.[1]

1992-ci ildə isə C.Burnutyan İrəvan xanlığının son dövrünə (1795-1828) həsr etdiyi irihəcmli "İrəvan xanlığı Qacarların hökmranlığı dövründə: 1795-1828" illər əsərində[2] nəzərdən keçirdiyi qaynaqların və ədəbiyyatın əksəriyyəti, Azərbaycan tarixşünaslığı üçün çox az istinad edilən əsərlərdir. Burada o dövrün mürəkkəb geosiyasi oyunlarının bütün iştirakçılarının (Rusiya, İngiltərə, Fransa və s.) arxiv sənədləri (s.287), habelə səyahətnamələr, xatirələr və sonrakı dövrün elmi araşdırmaları ilə tanış olmaq mümkündür (s.324-338). Kitabın tam 29 səhifəsi yalnız erməni müəlliflərinin əsərlərinin siyahısından ibarətdir (s.294-323). Azərbaycan müəlliflərinin əsərləri, digər mövcud mənbələr, bilərəkdən dövriyyəyə cəlb edilməyib (bir əsər istisna olmaqla).

Digər erməni mənşəli müəlliflər 2000-ci ildə Yekaterinburqda "Arsaxın inciləri" adlı, əsasən illüstrasiyalardan ibarət Qarabağın tarixinə aid qısa xülasə daxil etdikləri kitabcıq nəşr edib, başdan-başa şişirdilmiş ağ yalanları ilə Qarabağın tarixini həyasızcasına saxtalaşdırıblar.[3]

2009-cu ilin sonunda Moskvada Arsen Melik-Şahnazarov "Dağlıq Qarabağ: yalanlara qarşı faktlar" adlı irihəcmli kitab hasil edib[4]. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin informasiya-ideoloji aspektlərinə həsr edilən kitabda 1918-ci ildən günümüzə qədər bu münaqişənin tarixi köklərini uydurmalarla araşdırmağa cəhd edib.

Erməni tarixçilərinin qərəzli şərhləri internet nəşrlərində gen-bol sərgilənir. Artaq Maqalyan "Arsax məlikləri və Qarabağ xanlığının yaranma-

---

[1] Bournoution G. The population of Persian Armenia Annextion to the Russian Empire 1826-1832. Columbia University, 1980.

2 Bournoutian G. The Khanate of Erevan Under Gajar Rule. 1795-1828. New York, 1992.

[3] Сокровища Арцаха. Екатеринбург – 2000

[4] Мелик-Шахназаров А. Нагорный Карабах: факты против лжи. Москва, 2009.

sı" başlıqlı məqalədə Qarabağı uydurma "Şərqi Ermənistan"ın bir hissəsi kimi qələmə verir, Qarabağın dağlıq hissəsində alban soyköklü xristian məlikləri "bir neçə əsr ərzində erməni milli-azadlıq hərəkatının bayraqdarı" olduğunu iddia edir. [1]

V.Balayan "Arsaxın tarixşünaslığı" başlıqlı internet yazısında Kür çayı boyunca ərazilərin "Erməni çarlığı"nın tərkibinə daxil olduğunu iddia edir.[2] Müəllif Arsax ermənilərinin 1735-ci ilədək müstəqillik qazandıqlarını, Nadir şahın bunu tanımaq məcburiyyətində qaldığını söyləməklə, özünü gülünc vəziyyətə salır.

1954-cü ildə A.Papazyan İrəvan xanlığında aqrar münasibətlərə həsr etdiyi dissertasiya işində[3] İrəvan xanlığının "Ermənistan" ərazisində yarandığını iddia edir, Papazyan əsərdə əsasən qriqoryan kilsəsinin monastır mülkləri haqqında məlumat verir, xanlıqda mövcud aqrar münasibətləri tədqiq etməyə çalışsa da, buna müəssər olmayıb.

Erməni-sovet tarixşünaslığında ilk dəfə İrəvan xanlığının tarixini tədqiq etməyə cəhd edən V.Qriqoryanın əsəri 1958-ci ildə erməni dilində nəşr edilib.[4] Əsər İrəvan xanlığının 1780-1800-cü illər tarixini əhatə edir, İrəvan xanlığının siyasi, sosial-iqtisadi vəziyyəti, dövlət quruluşu, inzibati-ərazi bölgüsü, təbii sərvətləri, vergi və mükəlləfiyyətləri, əhalinin sayı və digər məlumatlar izlənilir.

V.Parsamyan[5] 1972-ci ildə nəşr etdirdiyi 1801-1900-cu illəri əhatə edən əsərinin birinci, ikinci fəsillərini İrəvan xanlığının tarixinə həsr edib. Həmkarlarından heç fərqlənməyən V.Parsamyan İrəvan və Naxçıvan xanlıqlarını "Şərqi Ermənistan" ərazisi hesab edir.[6] İrəvan xanlığının siyasi tarixi, inzibati-ərazi bölgüsü, şəhər və kənd həyatı, torpaq mülkiyyət formaları, vergi və mükəlləfiyyətlər sistemi, əhalinin sayı, dini-etnik silki haqqında

---

[1] Магалян А. Арцахские меликства и возникновение Карабахского ханства // http://Karabakh news.com/6187-artax maqalyan-arsaxskie-melikstva-i-vozniknoveniye karabaxskoqo-xanstva/ntme

[2] Балаян В. Историография Арцаха (Нагорно-Карабахская Республика) (srch/ slav/ hokudai/ ac/ jp /coc 21/ publish/ no 18/2 – balaian-pdf).

[3] Папазян А.Д. Аграрные отошния в Ереванском ханстве в XVIII в. АКД, Ереван, 1954.

[4] Qriqoryan V. İrəvan xanlığı XVIII əsrin sonunda (1780-1800-cü illər). Yerevan, 1958 (Erməni dilindən tərcümə edəni Sərlan Həsənov) // AMEA TİEA, Əlyazma fondu.

[5] Парсамян В. История армянского народа. 1801-1900. кн. 1. Ереван, 1972.

[6] Yenə orada, s.8.

bilgilər saxtalaşdırılır.[1]

Digər erməni müəllifləri kimi, Q.Qaloyanın, T.Anonyanın, B.Arutyunyanın əsərlərində[2] İrəvan xanlığının siyasi-ictimai, iqtisadi tarixi, inzibati-ərazi bölgüsü, şəhər və kənd həyatı, əhalinin sayı, dini-etnik tərkibi, erməni əhalisinin köçürülməsi, torpaq mülkiyyəti formaları, vergi və mükəlləfiyyətlər haqqında oxşar məlumatlar izlənilir. Bir qayda olaraq, bu müəlliflər İrəvan xanlığının ərazisini "Şərqi Ermənistan" kimi təqdim edir, bütün hadisələri erməni xalqının xeyrinə tarixi həqiqətdən kənarda işıqlandırırlar.

İrəvan xanlığının tarixi 1956-cı ildə nəşr edilən "SSRİ tarixinin oçerkləri" adlı ümumiləşdirilmiş əsərdə saxtalaşdırmalara məruz qalıb. Əsərin bir bölməsi "Ermənistan" adı altında təqdim edilsə də, əslində, söhbət İrəvan xanlığından gedir.[3] Bu bölmənin müəllifləri A.İoannisyan və P.Arutunyan İrəvan xanlığını "Şərqi Ermənistan" kimi təqdim edir onun siyasi, sosial-iqtisadi vəziyyətini, sənətkarlıq, ticarət, vergi və mükəlləfiyyətlər, mədəniyyət və s. sahələrini təsvir etməyə çalışıblar.

B.Balayan Rusiya-İran müharibələrinin tarixinə həsr etdiyi əsərində[4] İrəvan xanlığının Rusiya tərəfindən işğalını tədqiq edir. Əsərdə hadisələr birtərəfli xarakter daşıyır.

XIX əsrin birinci yarısında Cənubi Qafqazda rus çarizminin yeritdiyi inzibati, iqtisadi siyasəti araşdıran V.Tunyan İrəvan və Naxçıvan xanlıqlarını mifik Ararat ərazisinə daxil edir. Müəllif yazır: "Ararat xanlıqları İrəvan və Naxçıvan istisna olmaqla, İran 12 oktyabr 1813-cü il traktatına əsasən, Zaqafqaziya əraziləri üzərində Rusiyanın suverenliyini tanıdı" [5].

Qeyd etmək lazımdır ki, erməni müəlliflərinin mütləq əksəriyyəti faktların onların əleyhinə işləyəcəyindən ehtiyatlanaraq İrəvan xanlığının tarixini kompleks tədqiq etməkdən çəkiniblər. Tarixi hadisələri həqiqətdən uzaq, mənbələrlə təsdiqlənməyən xəyali iddialar sərgiləyərək təqdim edirlər.

---

[1] Парсамян В. Göstərilən əsəri, s. 50.

[2] Галоян Г. Россия и народы Закавказья. М., 1976; Анонян Т. Очерк истории Еревана. 1977; Арутунян Б. Крупное монастырское хозяйство в Армении в XVII-XVIII вв. Ереван, 1940.

[3] Очерки истории СССР XVII в. Вторая половина. М., 1956, с.736-754.

[4] Балаян Б. Дипломатическая история русско-иранских войн и присодинение Восточной Армении к России. Ереван, 1988.

[5] Тунян В. Административная и экономическая политика самодержавия в Закавказье, 1801-1853 гг. АКД, Тбилиси, 1989, с.22.

Xüsusi olaraq qeyd etməliyik ki, İrəvan xanlığı ərazisi ilə Ermənistan arasında çox böyük – iki əsrlik fərq var. İrəvan xanlığı qədim Azərbaycan dövləti idi və azərbaycanlılar tərəfindən XX əsrin əvvəllərində dünyanın heç bir yerində dövləti olmayan ermənilərə güzəşt edilib və ermənilər üçün sonradan yaradılan indiki Ermənistan Respublikasıdır. Bu fərqi görməyən erməni müəlliflərinin faktları, tarixi həqiqətləri təhrif etmək, cəfəng uydurmadan başqa çarəsi qalmayıb.

Dissertasiyanın "**Qarabağ və İrəvan xanlığının tarixi digər ölkələrin tarixşünaslığında**" adlanan VI fəslində Türkiyə, İran, Rusiya, Gürcüstan və digər ölkələrdə nəşr edilən əsərlər təhlil edilib, dəyərləndirilir.

Azərbaycan tarixinin tədqiqi məsələləri həmçinin qardaş Türkiyə tarixçilərinın diqqət mərkəzindədir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başlandıqdan sonra isə qardaş ölkə tədqiqatçıları bölgənin tarixini daha dolğun tədqiq etmək məqsədiylə səylərini gücləndirib.

Camal Gökçenin 1979-cu ildə yazdığı əsərində[1] XVIII əsrın II yarısı – XIX əsrin əvvəllərində mövcud Azərbaycan xanlıqları, o cümlədən Qarabağ xanlığı haqqında səthi məlumat izlənilir. İbrahim Yüksel 1988-ci ildə yazdığı "Çar Rusiyasının Azərbaycanı istila etməsi, Osmanlı dövlətinin mövqeyi" adlanan məqalədə Qarabağ xanlığı barədə ötəri fikirlər söyləyir, təəssüf ki, çox kobud yanlışlıqlara yer verir.[2]

1990-cı ildə Yusif Gədikli Qarabağ tarixinin tədqiqinə öz töhvəsini vermək məqsədi ilə Əhməd bəy Cavanşirin "1747-ci ildən 1805-ci ilədək Qarabağ xanlığının siyasi vəziyyətinə dair" əsərini Türkiyə türkcəsinə tərcümə edib[3].

Professor Dr. Dursun Yıldırımla dosent doktor M.Cihat Özender 1991-ci ildə "Karabağ dosyası" adlı əsərdə XIX yüzillikdə müstəmləkəçi dövlətlərin oyunçularının XX əsrin son 20 ili ərzində düşdüyü qeyri-insani durumları dünya ictimaiyyətinin diqqətinə çatdırılmağın zəruri olduğunu qeyd edirlər.[4]

---

[1] Dr. Camal Gökçe. Kafkasya və Osmanlı imparatorluğunun Kafkasya siyaseti. (Doktora tezi). İstanbul, 1979.

[2] Yüksel İbrahim. Çarlık Rusyasının Azerbaycanı istilası ve Osmanlı devletinin tutumu. Kafkas araştırmaları. Açar yayınları, İstanbul, 1988, s.32-33.

[3] Gedikli Yusif. "Karabağ hanlığının tarıhı ve Ahmet-bey Cavanşir. Türk tarihi ve Ahmet-bey Cavanşir. Türk dünyası araştırmaları, 69, Aralık, s.76-114.

[4] Professor Dr. Dursun Yıldırım, Doç. Dr. M. Cihat Özender. Karabağ dosyası. II başkı. Ankara, 1991, s.5.

Türkiyə Cümhuriyyəti Başkanlığı Osmanlı Arxivinin kollektivi 1992-1993-cü illərdə Osmanlı dövlətinin Azərbaycan xanlıqları ilə münasibətlərini əks etdirən sənədləri toplayıb müasir türk əlifbasına transliterasiya edərək (hər bir sənədin qısa məzmununu göstərməklə) iki cilddən ibarət sanballı sənədlər toplusunu nəşr ediblər. Topluda əsasən Osmanlı hökumətinin və sərhəd paşalıqlarının Qarabağ xanlığı ilə əlaqələrini özündə əks etdirən müəyyən sənədli materiallar var.[1]

Digər türk alimi doktor Cəmaləddin Taşkıran 1995-ci ildə "Keçmişdən günümüzə Qarabağ məsələsi" adlı kitab[2] yazıb. Əsərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin mahiyyəti, gündəmə gəlməsinin səbəbləri, Türkiyənin Qarabağ məsələsində tutduğu mövqe, apardığı siyasət araşdırılır, Qarabağ probleminin rusların və erməniپərəst qərb siyasətçilərinin təhriki ilə ortaya çıxdığı, bölgədə azlıq təşkil edən ermənilərin sayının süni şəkildə artırılması üçün dinc Azərbaycan türklərinin kütləvi qətlə yetirilməsi, deportasiyası və s. məsələlər izlənilir.

2009-cu ildə Türkiyə Cumhuriyyəti Dövlət Arxivləri Baş İdarəsinin Osmanlı Arxivi Dairə Rəisliyi "Osmanlı belgelerinde Karabağ"[3] adlı sənədlər toplusu nəşr edib. Topluya 15 sənəd daxil edilib. Sənədlərin (36-72 saylı sənədlər) əksəriyyəti Qarabağ xanlığına aid sənədlərdir.

**Dissertasiyanın bu fəslinin ikinci yarımfəslində İran tarixşünaslığı nəzərdən keçirilir.** Bu baxımdan Hafizzadənin "Qarabağ",[4] Səməd Sərdariniyanın "Qarabağ tarixin keçidində"[5] əsərlərini qeyd etmək olar.

Məhəmməd Hafizzadə problemə yüksək peşəkarlıqla yanaşıb, səviyyəli, fərqli əsərlə İran tarixşünaslığını zənginləşdirib. O, 1998-ci ildə (hicri 1376-cı il) "Pəyame-nou" jurnalının 30-cu sayında Qarabağla bağlı irihəcmli məqalələri ilə çıxışlar edib, məqalələr çoxsaylı oxucular tərəfindən müsbət qarşılandığı üçün müəllif müəyyən əlavələr və dəyişikliklər edərək, elmi faktlara söykənən əsəri oxuculara təqdim edib. Müəllif "Albaniya" sö-

---

[1] Osmanlı devleti ile Azərbaycan türk hanlıkları arasındakı münasibetlere dair arşiv belgeleri (Karabağ-Şuşa, Nahçivan, Bakü, Gence, Şirvan, Şeki, İrevan, Kuba, Hoy), I (1578-1914). Ankara, 1992; c. II (1575-1918). Ankara, 1993.

[2] Dr. Cemalettin Taşkıran. Geçmişten günümüze Karabağ meselesi. Ankara, Genel Kurmay basın evi, 1995.

[3] Osmanlı belgelerinde Karabağ // T.C.Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü, Osmanlı Arşivi Daire Başkanlığı, Yayın Nu:100. İstanbul: 2009

[4] مهمد حافظ زاده. غره باغ. - تبریز: 2001.

[5] سمد سردارنیه. غره باغ درآستانه تاریخ. - تهران : 2002

zünün "dağlar məskəni" yaxud "dağlıq məntəqə" mənasını verdiyi bildirilir,[1] açıqladığı maraqlı bilgi zərdüştlikdən xristianlığa keçən alban kilsələrinin girişinin üzünün şərqə doğru tikildiyinə və şərqə doğru tikilən kilsələrin ermənilərə heç bir aidiyyəti olmadığına diqqət yönəldir[2]. Bununla belə, Hafizzadə, Qacarın Qarabağa yürüşü və burada baş verən hadisələr barədə yanlış məlumatlar sərgiləyir.[3]

Qarabağ tarixini tədqiq edən Səməd Sərdariniya 2005-ci ildə "Qarabağ tarixin keçidində" adlı dolğun, sanballı əsər yazmışdır.[4] Əsərdə Qarabağın qədimdən günümüzədək ilkin tarixi mənbələr və tarixi ədəbiyyat əsasında tədqiq edilib. Əsər "Qarabağ Nadir şah Əfşarın dövründə", "Qarabağ xanlıqlar dövründə", "İbrahimxəlil xan Cavanşir", "İbrahimxəlil xan Cavanşirin aqibəti", "Xanlıqlar dövründə mədəniyyət və ədəbiyyat", "Ağa Məhəmməd xan Qacarın Qarabağa hücumu", "Qarabağ İran-Rus müharibələrində", "Bəzi xanlıqların süqutu", "Ermənilərin İrandan Qarabağa köçürülməsi", "Ermənilərin Osmanlıdan Qarabağa köçürülməsi" adlı bölmələrdən ibarətdir. "Qarabağ tarixin keçmişindən" əsərində müəyyən fikir uyğunsuzluqları, yanlış iddialar da izlənilir.

Səməd Sərdariniyanın "İrəvan müsəlmanlar yurduymuş"[5] əsəri üzərində xüsusi dayanmaq vacibdir. Əsərdə İrəvanın qədimdən müasir dövrə qədərki tarixi təsvir edilir. Müəllif İrəvanı qədimdən "İranın adi vilayətlərindən biri"[6] sayır. Müəllif burada hakimiyyətin Qaraqoyunlu tayfa birləşməsinə daxil olan Sədli tayfasına məxsusluğunu vurğulayır, İrəvan şəhərinin başlıca olaraq Səfəvilər dövrü barədə məlumat verir. Əsərdə "İrəvan xanlıqlar dövründə" adlı ayrıca bölmədə İrəvan xanlığının yaranma tarixi barədə məlumat, xanlığın 12 mahala bölündüyü qeyd edilir.[7] Əsərdə bir sıra yanlışlıqlar izlənilir.

**Bu fəslin (IV) sonuncu – üçüncü bölməsi "Rusiya, Gürcüstan və digər ölkələrin tarixşünaslığı" adlanır**. 1917-ci il oktyabr çevrılışınə qədərki dövrdə rus tarixşünaslığında Qarabağ və İrəvan xanlıqları tarixinə həsr edilən hər hansı bir əsərin yazılmadığı, yalnız bütövlükdə Cənubi

---

[1] 2002: تهران - .سمد سردارنيه. غره باغ درأستانه تاريخ , s.9.
[2] Yenə orada, s.80.
[3] Yenə orada, s.161.
[4] Yenə orada.
[5] سمد سردارنيه. ايروان يك ولايت اسلام بود. - تهران: 2002 238 ص
[6] Yenə orada, s.3.
[7] Yenə orada, s.53.

Qafqazın tarixinə[1], Cənubi Qafqazın Rusiya tərəfindən işğalına həsr edilən əsərlərdə[2] Qarabağ və İrəvan xanlıqlarının tarixi yetərincə tədqiq edilib. D.Zubarevin məqaləsində[3] işğal ərəfəsində Qarabağ xanlığının iqtisadi vəziyyətinə dair məlumatlar mövcuddur.

A.P.Novoseltsev Azərbaycan və "Ermənistan" şəhərlərinin XVII-XVIII əsrlərdə vəziyyətinə dair məqalə yazıb. Məqalənin əsas nöqsanı müəllifin faktlara söykənməyən mülahizələr söyləməsidir, qondarma erməni yazarlarının təsiri altında tarixi Azərbaycan torpağı Qərbi Azərbaycanı uydurma Ermənistanın bir hissəsi, qədim Azərbaycan şəhəri İrəvanı erməni şəhəri kimi təqdim etməsidir.[4]

Rus-sovet tarixçisi O.Markova İrəvan xanlığının tarixini tədqiq edərək, Azərbaycan sovet tarixçilərinə nisbətən daha obyektiv mövqe nümayiş etdirib, əsərin 311-ci səhifəsində verdiyi xəritədə İrəvan xanlığını Gəncə və Naxçıvan xanlıqları ilə yanaşı, gürcü çarlıqlarından asılı Azərbaycan xanlığı olduğunu söyləyib.[5] Müəllif İrəvan xanlığının tədqiqində ardıcıl obyektiv mövqe nümayiş etdirmir. Rus hökumətinin İrəvan və digər Azərbaycan xanlıqları hesabına Ermənistan dövləti yaratmaq cəhdlərini Ermənistan dövlətinin bərpası zənn edir. Markovanın yanlış iddiası E.Qarayev tərəfindən təkzib edilib.[6]

---

[1] Егиазаров А.С. Очерки по истории учреждений в Закавказье. ч. I. Сельская община. Казань. 1884. Yenə onun: Исследоваие по истории учреждений в Закавказье. ч. 2. Городские цехи. Казань, 1891; Сельская община в Елизаветпольской и Бакинской губерниях. Свод материалов для изучения экономического быта государственных крестьян Закавказского края, т. 3. ч. 2. Тифлис. 1888, с.1-16; Иващенко В.Н. Гражданское управление Закавказьем, Тифлис, 1901; Эсадзе С. Историческая записка об управлении Кавказом. Тифлис, 1907.

[2] Дубровин Н.Ф. Закавказье от 1803 по 1806 г.г. СПб, 1866. Yenə onun. Поход В.А.Зубова в 1796 г. С приложением оперативной картины похода. Военный сборник, 1864. №2-6. Отдельный оттиск. Yenə onun. История войны и владычества русских на Кавказе. т.I, кн. 2, СПб. 1871; т. 6.

[3] Зубарев Д. Карабахская провинция. Обозрение российских владений за Кавказом в статистическом. этнографическом, топографическом и финансовом отношениях (ОРВК), ч. III, СПб., 1836. с.255-319.

[4] Новосельцев А.П. Города Азербайджана и Армении в XVII-XVIII вв. // История СССР, 1959. №1.

[5] Маркова О. Göstərilən əsəri, s. 11.

[6] Qarayev E. Sovet tarixşünaslığında.., s.414.

H.İbrahimbəylinin 1969-cu ildə Moskvada nəşr edilən əsərində[1] XIX əsrin ilk otuzilliyində Azərbaycan xanlıqlarının Rusiya dövləti tərəfindən işğalı tədqiq edilir. Əsərdə birinci və ikinci Rusiya-İran, Rusiya-Osmanlı müharibələrini ətraflı təsvir edən müəllif müxtəsər olaraq İrəvan xanlığı ərazisində gedən döyüşlərdən bəhs edir. Təəssüf ki, müəllifin mövcud mənbələri bilməməsi onun yanlış müddəalar söyləməsinə zəmin yaradıb.[2] O, İrəvan xanlığını Azərbaycan xanlıqlarından ayırır, xanlığı Ermənistan dövləti kimi təqdim edir, yanlış olaraq Həsən xanın sonuncu İrəvan xanı olduğunu söyləyir.

Gürcü sovet tarixşünaslığında İrəvan xanlığına qarşı münasibət birmənalı olmayıb. 1946-cı və 1962-ci illərdə nəşr edilən "Gürcüstan tarixi" dərsliklərinin birinci və ikinci nəşrində yanlış müddəalar müşahidə edilir. Hər iki nəşrdə İrəvan xanlığı ilə bağlı hadisələr təkrarlanır, lakin birinci nəşrdə İrəvan müsəlman, yəni Azərbaycan xanlığı kimi təqdim edilir. İkinci nəşrdə isə bir qədər fərqli mövqe mövcuddur. Erməni siyasi xadimlərinin "Ermənistanı", yəni İrəvan xanlığının azad edilməsi planları, İ.Eminin vahıd gürcü-erməni dövlətinin yaradılması istiqamətində apardığı fəaliyyəti araşdırılır.[3]

Kitabda 1751-ci ilin axırlarında Təbriz hakimi Azad xanın İrəvana hücumu, II İrakli ilə toqquşmalarda çarın fəaliyyətinin şişirdilməsi tarixi həqiqətə ziddir. Qeyd edilir ki, bu döyüşdə Azad xan məğlub olaraq geri qayıdıb.[4] Lakin son məqamda Azad xanın qələbə çaldığı və yaxınlarından birini İrəvana hakim təyin etdiyi açıqlanır.[5]

Gürcü sovet tarixçilərindən G.Kikodzenin "II İrakli" əsərində İrəvan xanlığı tarixinin bəzi məqamları tədqiq edilir. Əsər Kartli-Kaxetiya çarı II İraklinin həyat fəaliyyətinə həsr edilir, İrəvan xanlığı ilə əlaqələri araşdırılır. Müəllif İrəvan xanlığını Azərbaycan xanlığı kimi dəyərləndirir.[6] G.Kikodze şəkili Hacı Çələbi xanın gürcü çarları üzərində qələbəsinin Dağıstan və Azərbaycan əhalisinə böyük təsir göstərdiyini, Gəncədə və İrəvanda,

---

[1] Ибрагимбейли Х. Россия и Азербайджан в первой трети XIX в (Военно-политическая история). Москва, 1969.

[2] Qarayev E. Göstərilən əsəri, s. 415

[3] История Грузии. I т, 1946, с.432; 1962, с.391-392; 1946, с.402-403; 1962, с.359, bax: Qarayev E. Göstərilən əsəri, s.415

[4] Yenə orada, c.393.

[5] Yenə orada.

[6] Кикодзе Г. Ираклий Второй. Тбилиси, 1948, с.58.

eləcə də Qazax və Borçalıda Gürcüstandan ayrılma meylinin gücləndiyini vurğulayır.[1]

Q.Paycadzenin "Georgiyevsk traktatı" əsəri Rusiya ilə Kartli-Kaxetiya arasında bağlanan 1783-cü il müqaviləsinə həsr edilsə də, İrəvan xanlığı ilə Kartli-Kaxetiya çarlığı arasında münasibətlər tədqiq edilir.[2] Müəllif İrəvan xanlığına qarşı ziddiyyətli mövqe tutur. O, bir tərəfdən İrəvan xanlığının əsasının 1604-cü ildə I Şah Abbas tərəfindən "Şərqi Ermənistan" ərazisində qoyulduğunu, eyni zamanda İrəvan xanlığının erməni dövləti olmadığını etiraf edir.[3]

İrəvan xanlığının tarixi bir sıra Qərbi Avropa ölkələri tarixçilərinin əsərlərində araşdırılır. Belə ki, Tehrana ingilis səfiri kimi göndərilən Ser Con Makneyl 1836-cı ildə 7 fəsil, yekun bölmə daxil olmaqla "Rusiyanın Şərqə ekspansiyası və oradakı cari mövqeyi" əsərində I Rusiya-İran müharibəsinin başlanmasını açıqlayan müəllif yazır ki, 1804-cü ildə Fətəli şah Qacar ona tabe olmaqdan imtina edən irəvanlı Məhəmməd xana qarşı ordu göndərib, xan Qafqazdakı rus qoşunlarının komandanı general Sisianovdan yardım göstərməsini xahiş edib və əvəzində qalada rus qarnizonunun yerləşdirilməsinə razılıq vədi verib[4]. Sisianov bu təklifdən faydalanmaq qərarına gəlir, İrəvanı tutmaq üçün şəhərə hücum edir. Rus sərkərdəsi Eçmiədzini tutsa da, Məhəmməd xan İrəvan qalasını ona təslim etməkdən imtina edib. Ruslar ərzaq qıtlığı üzündən, düşmənin hücumlarına məruz qalıb mühasirəni yarımçıq dayandırır və geri çəkilməli olurlar [5]. Makneyl Azərbaycan xalqının qədim yurdu İrəvan xanlığını yanlış olaraq Ermənistan adlandırır, xanlıqların idarəçilik sistemini Avropadakı hər hansı feodal baronun tətbiq etdiyi idarəçilik sisteminə bənzədiyini açıqlayır.

ABŞ-da yaşayan jurnalist Mirzə Xəzər 2006-cı ildə "Azərbaycan tarixi: XVII əsrin sonu – XIX əsrin əvvəli" adlı əsərində tarixi faktlara obyektiv yanaşaraq, Qarabağın dağlıq hissəsində yaşayan xristian məliklərin Azərbaycanın müxtəlif ərazilərindən bura köçdüyünü, yalnız Xaçın məliklərinin yerli olduğunu açıqlayır. O, tamamilə düzgün olaraq qeyd edir ki, xaçınlılar heç bir dövrdə özlərini erməni hesab etməyiblər, hər zaman alban

---

[1] Кикодзе Г. Göstərilən əsəri, s. 62.
[2] Пайчадзе Г. Георгиевский трактат. Тбилиси, 1983, с.57.
[3] Yenə orada, c.57.
[4] Ser Con Makneyl. Rusiyanın Şərqə ekspansiyası və oradakı cari mövqeyi (ingiliscə). 1836, s.56.
[5] Yenə orada, s.56-57.

soyköklü olduqlarını dönə-dönə təsdiqləyiblər.

ABŞ politoloqlarının bəziləri obyektiv mövqedən uzaq, faktlara əsaslanmadan ermənipərəst münasibət nümayiş etdirirlər. Bunlardan biri Kristofer C.Uolkerdir. Müəllif erməni terrorizmini sözdə pisləsə də, ermənilərin ərazi iddialarına haqq qazandırır, orta əsrlərdə Qarabağı Ermənistanın Arsax vilayəti kimi tanındığını iddia edir, bu ərazilərin 1921-ci ildə Stalin tərəfindən Azərbaycana birləşdirildiyini söyləyir[1]. Müəllifin elmi təhlildən uzaq yanlışlıqlarından ən dəhşətlisi Aranşahlar sülaləsini erməni mənşəli saymasıdır.

Dissertasiyanın **«Nəticə»** hissəsində tədqiqatın yekunları şərh edilərək, elmi-nəzəri ümumiləşdirmələr aparılmışdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı nəşrlərində öz əksini tapmışdır:**


1. Предисловие или несколько слов о Гарабагском ханстве // Описание Гарабагской провинции (подготовка к печати и переиздание З.А.Гаджиевой) Баку, Нурлан, 2003, s. III-XVI.
2. Qarabağ xanlığının mahalları və əhali tərkibi haqqında // AMEA Xəbərləri, Tarix, fəlsəfə, hüquq seriyası. №4, 2004, s. 83-95
3. Qarabağ xanlığında sənətkarlığın vəziyyətinə dair // Tarix və onun problemləri, №3, 2004, s.236-247.
4. Qarabağ xanlığının yaranması və onun sərhədləri haqqında // Azərbaycan və Türkiyə simpoziumunun (tezis-məruzələr) materialları. Bakı, 2004-cü il, 24 may, s. 148.
5. Ümumilli əbədi liderimiz Heydər Əliyevin əziz xatirəsinə və 28 may – Respublika gününə həsr olunmuş dünyada yeni inkişaf meylləri istiqamətində türk dünyası, Azərbaycan və Türkiyə Beynəlxalq elmi-praktik simpoziumun (Tezis-məruzələr) materialları. "Qarabağ xanlığının yaranması və onun sərhədləri haqqında". Azərbaycan Dövlət İqtisad Universiteti Türk Araşdırmaları Vəqfi Türk Dünyası işlətmə Fakultəsi Tezis-məruzələr. Bakı, 2004.
6. Образование Гарабахского ханства // The Prezidium of Azerbaycan National Akademy of Sciences. Азербайджан и Азербайджанцы, 2004.
7. Об административном устройстве и религиозно-этническом составе


[1] Christofer J.Walker. Armenia and Karabagh. 1991, p.78.

Гарабагского ханства // Гарабаг: Кюрекчайский договор-200. Баку, 2005, s.101-113.

8. Образование Гарабагского ханства // Азербайджан и азербайджанцы Баку, 2005, №4, s. 19-26.
9. Xanlıq dövründə Qarabağda kənd təsərrüfatının vəziyyəti, torpaq və su sahibliyi haqqında // Azərbaycan Tarix qurumu. Azərbaycan tarixi məsələləri. Bakı 2005, səh.34-56.
10. Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu (**Monoqrafiya)**– Bakı: 2007, – 254 s.
11. Mirzə Adıgözəl bəyin «Qarabağnaməsi haqqında» // Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq münasibətlər institutu. Dirçəliş XXI əsr 126-127, 2008, s. 369-383.
12. Mirzə Camal Cavanşir Qarabağlının «Qarabağ tarixi əsərlərinin tarixşünaslıqda yeri // Pedaqoji Universitet Xəbərləri. Bakı, №4, 2008, s. 56-73.
13. Mir Mehdi Xəzani və onun «Kitabi-tarixi-Qarabağ» əsəri haqqında // Tarix və onun problemləri №3. Bakı, 2008, s. 221-235.
14. Mirzə Yusif Qarabağı və onun «Tarixi-Safi» əsəri haqqında // AMEA Xəbərləri Tarix, fəlsəfə, hüquq seriyası №9, 2008, s. 3-17.
15. Əhməd bəy Cavanşirin «Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair» adlı əsəri haqqında // Pedaqoji universitetin Xəbərləri. Bakı №6, 2008, s. 112-123.
16. «İrəvan xanlığı Qacarların hökmranlığı dövründə 1795-1828» adlı əsəri haqqında // AMEA Xəbərləri Tarix, fəlsəfə, hüquq seriyası, №10, 2008, s. 3-21.
17. Город Шуша во второй половине XVIII века – в начале XIX в. // Материалы Международной научно-практической конференции. (25-28 IX.2008 г.). Кизляр, 2008, s. 53-64.
18. İrevan xanlığı Amerikalı Bir Ermeni Yazarın sonumunda (Türkiyə-konfransı Kars) // Kafkas universitesi Fen Edebiyyat Fakültesi Tarix Bölümü ve Atatürk Ulkeleri ve İnkilap Tarixi Araştırma ve Uyqulama Merkezi II Uluslararası Kafkasya tarix simpoziumu 15-17 ekim 2008. Kars, s.25.
19. Təkrarlanan tarix və təkrarlanan şərhlər. Corc Burnutyanın rus-sovet və erməni tarixçilərindən fərqli və oxşar cəhətləri // Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutu. Dirçəliş XXI əsr, 130-131/2008-2009, s. 147-159.

20. İrəvan xanlığı Qacarların hökmranlığı dövründə. 1795-1828 adlı əsər haqqında // Azərbaycan MEA-nın Xəbərləri (Tarix, fəlsəfə, hüquq seriyası). №10. Bakı, 2009.
21. The Garabagh Khanate: socio-economic relations and the state system. (**Monoqrafiya). –** Bakı: 2010. – 243 s.
22. The same old story…and the same old comments // Jeneva DIVA international issue 2. 2010, s. 42-48.
23. İrəvan xanlığı tarixi haqqında tarixçilərin ən son sözü // AMEA Məruzələr 2010, №4, s. 138-148.
24. Qarabağ xanlığının tarixşünaslığı **(Monoqrafiya).** Bakı, 2010. 266 s.
25. İrəvan xanlığının tarixşünaslığı **(Monoqrafiya).** Bakı, 2011. 120 s.
26. Təkrarlanan tarix, təkrarlanan şərhlər. «İrəvan xanlığı Qacarların hökmranlığı dövründə. 1795-1828» kitabın müəllifi C.Burnutyanın rus-sovet və erməni tarixçilərindən fərqli və oxşar cəhətləri // Təhlillər və şərhlər. Bakı, 2011. 82 s.
27. Историко-культурное наследие Гарабага. Брошюра, 2012. 12 c. (Azərbaycan, rus, ingilis dillərində).
28. Mirzə Rəhim Fənanın "Tarixi-cədidi-Qarabağ" əsəri haqqında // Pedaqoji Universitetin Xəbərləri, Humanitar elmlər bölməsi, №3. 2012, s. 87-90.
29. Qarabağ xanlığının tarixi XX əsrin 60-80-cı illərində Azərbaycan və Sovet tarixşünaslığında // AMEA Xəbərlər (Tarix, fəlsəfə, hüquq) №10. Bakı, 2012.
30. Qarabağ xanlığının tarixi müasir erməni tarixşünaslığında // Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq münasibətlər institutu. Dirçəliş - XXI əsr, №171-172. 2012, s. 411-418.
31. Müstəqillik dövrü Azərbaycan tarixşünaslığı. Problemə yeni baxış. AMEA Xəbərlər (Tarix, fəlsəfə, hüquq) Bakı, 2012.
32. История Гарабагского ханства в иранской историографии // Международный научный журнал «Кавказ и мир», 2012 №14, s. 99-106.
33. Raffi və onun Qarabağ haqqında mifik məlumatları // Pedoqoji Universitetin Xəbərləri, Humanitar elmlər bölməsi, №1. Bakı 2013. s. 65-70.
34. XX əsrin 30-40-cı illəri erməni tarixşünaslığında Qarabağ xanlığı tarixinin saxtalaşdırılmasına dair: AMEA Məruzələr "Elm" Redaksiya-Nəşriyyat və Poliqrafiya Mərkəzi. Bakı, 2013.

35. XX əsrin 40-50-ci illəri Sovet tarixşünaslığında. Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq münasibətlər institutu Dirçəliş - XXI əsr. №173-174. Bakı, 2013, s. 146-156.
36. Türkiye ve İran Tarih Bilimciliğinde Karabağ Tarihi // Türk Dünyası Araştırmaları Vakfı. Kültür Dergisi Tarih, Şubat 2013, sayı 314, s. 24-30; www.turkel.com.tr/ www; turkelmoscow.ru
37. The History of the Yerevan Khanate in she context of Russia, Georgia, Iran and other countries // Jeneva DIVA international issue 1, 2013, s.38-41
38. Американский историк армянского происхождения Дж. Бурнутьян об истории Иреванского ханства. Вопросы гуманитарных наук [R] // ISSN 1684-2618 Издательство «Спутник» Москва, №3 2013 г. стр. 22-36.
39. İrəvan xanlığının tarixi. Kataloq (Azərbaycan, rus, ingilis dillərində ). Bakı, 2013.

*Zemfira Ali gizi Hajiyeva*

## The historiography of the history of the Garabagh and Iravan khanates


### SUMMARY

The thesis is devoted to the study of historiography of the history of the Garabagh and Iravan khanates. The thesis consists of the introduction, six chapters, conclusion and the bibliography.

In the introduction is substantiated the topicality of the theme, goals and objectives, the scientific significance, methods and sources of the research.

The first chapter is titled “The historiography of the history of the Garabagh and Iravan khanates in the works of Azerbaijani historians in mid of the 19th century.” This chapter consists of 3 subsections, in which the works “Garabagnameh” by Mirza Adigozal bey, “The History of Garabagh” by Mirza Jamal Javanshir Garabaghi, “Gulistani-Irem” by famous Azerbaijani historian - the founder of the 19th century historiography of Azerbaijan Abbasgulu agha Bakikhanov are successively analyzed, as well as is given a critical assessment to each of them.

The second chapter of the thesis is called “The reflection of the history of the Garabagh and Iravan khanates in the works of Azerbaijani historians in the second half of the 19th-early 20th centuries”. This chapter consists of 7 subsections. In these subsections reviewed and analyzed the works “Tarikhi Safi” (“Pure history”) by Mirza Yusuf Garabaghi , “To the political history of the Garabagh khanate in 1747-1805 years” by Ahmad bey Javanshir, “The book on the history of Garabagh” by Mir Mehdi Khazani , “The rule of Panah Khan and Ibrahim Khan in Garabagh and the events of those times” by Rzagulu bey Mirza Jamal oglu, “The events in Garabagh” by Mahammad Hassan Baharly, “The old and new qualities and the state of the Garabagh region ...” by Hassanali Garadaghi, “The new history of Garabagh”, by Mirza Rahim Fena. These works are of chronological character and reflect events that occurred in the same historical period. Therefore, they often repeat each other.

The third chapter of the thesis is called “The History of Garabagh khanate in the Azerbaijani soviet historiography”. It consists of 2 subsections. The first part covers the historiography of the 40-50s of the 20th century, while the second part deals with the Azerbaijani soviet

historiography of the 60-80s of the 20th century.

The fourth chapter covers the works of the recent period and is called "The Azerbaijani historiography of the period of independence. A new view over the problem." This chapter deals with such issues as the forming of a new view over the problem, as well as a new direction in the study of the history of Garabagh. The questions of the Azerbaijani historiography on history of the Iravan khanate are researched in a separate subsection.

The fifth chapter is titled "The falsification of the history of the Garabagh and Iravan khanates by the Armenian authors." This chapter is divided into 2 subsections. Here is separately researched the issues of falsification of the Garabagh and Iravan khanates by the Armenian authors. The works of foreign Armenian authors are considered as well.

The last chapter –chapter six of the thesis is called "The history of the Garabagh and Iravan khanates in the historiography of other countries". Here special attention is paid to the Turkish historiography. The author also critically approaches to the Iranian historiography. The historiographies of Russia, Georgia and other countries are considered in the last subsection.

At the end of the thesis is provided brief scientific and theoretical conclusions that the author comes on the basis of the research.

*Земфира Али гызы Гаджиева*

**Историография Гарабагского и Иреванского ханств**

**РЕЗЮМЕ**

Диссертация посвящена изучению историографии истории Гарабагского и Иреванского ханств.

Работа состоит из введения, шести глав, заключения и библиографии.

Во введении обосновывается актуальность темы, обозначены цели и задачи, научное значение, методы и источники исследования.

Первая глава «Историография Гарабагского и Иреванского ханств в трудах азербайджанских историков середины XIX века», состоит из 3-х подразделов, последовательно анализируются труды авторов «Гарабагнаме» Мирза Адигёзал бека, «История Гарабага» Мирза Джамала Джаваншира Гарабаги и известного азербайджанского историка основоположника историографии Азербайджана XIX века Абаскули Ага Бакиханова «Гюлистани-Ирем», а также дается критическая оценка каждого произведения.

Вторая глава «Отражение истории Гарабагского и Иреванского ханств в трудах азербайджанских историков второй половины XIX-начала XX века», состоит из 7-и подразделов. В них рассматривается и анализируется труды Мирза Юсифа Гарабаги «Тарихи сафи» («Чистая история»), Ахмед бека Джаваншира «К политической истории Гарабагского ханства 1747-1805 гг.», Мир Мехди Хазани «Книга по истории Гарабага», Рзагулу бека Мирза Джамал оглу «Правление в Гарабаге Панах хана и Ибрагим хана и события тех времен», труд «События в Гарабаге» Магомед Гасана Бахарлы, «Древние и новые качества и состояния Гарабагской области…» Гасанали Гарадаги, «Новая история Гарабага» Мирза Рагима Фена. Эти труды носят хронологический характер, отражают события, происходившие в одном историческом периоде, поэтому описание тех или иных событий часто повторяют друг друга.

Третья глава диссертационной работы «История Гарабагского ханства в азербайджанской советской историографии» состоит из 2-х подразделов: первый охватывает историографию 40-50-х годов XX века, а во втором рассматривается азербайджанская советская историография 60-80-х годов XX века.

Четвертая глава работы охватывает новейший период и называется

«Азербайджанская историография периода независимости. Новый взгляд на проблему». В данной главе рассматривается вопросы формирования нового взгляда к проблеме, а также новое направление в исследовании истории Гарабага. Обособленно изучаются вопросы азербайджанской историографии Иреванского ханства.

В пятой главе, названной «Фальсификация истории Гарабагского и Иреванского ханств армянскими авторами», состоящей из 2-х подразделов, изучаются вопросы фальсификации истории как Гарабагского, так и Иреванского ханств армянскими авторами, а также рассматриваются труды армянских авторов, проживающих в разных странах мира.

Последняя – 6-я глава диссертации, называется «История Гарабагского и Иреванского ханств в историографии других стран».

Здесь особое внимание уделяется турецкой историографии. Автор критически относится также к иранской историографии. Историография России, Грузии и других стран мира рассматривается в последнем подразделе.

В конце диссертации даются краткие научно-теоретические выводы, к которым пришёл автор на основе исследования.

Əla növ kağız, formatı 60x84 - 1/16
Tirajı 100 nüsxə.
AMEA TİKM

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А.БАКИХАНОВА**

*На правах рукописи*

**ГАДЖИЕВА ЗЕМФИРА АЛИ гызы**

# ИСТОРИОГРАФИЯ ГАРАБАГСКОГО И ИРАВАНСКОГО ХАНСТВ

**Специальность 5503.02 – «Отечественная история»**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора наук по истории**

Баку – 2013